QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 083 (6283) 9 may 2021-ci il **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# ƏBƏDİYAŞAR Lider!



Sabah Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümüdür

# Həm hərb, həm informasiya savaşının Qalibi!

*Tvitterdə 3 milyondan çox baxış beynəlxalq diqqətin əyani təzahürüdür*



**Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin noyabrın 6-da "BBC News"a verdiyi müsahibə rekord qırıb. Ölkə başçısının müsahibəsinə Tvitter hesabında 3 milyondan çox baxış olub. 44 günlük Vətən Müharibəsi dövrünə təsadüf edən müsahibə beynəlxalq arenada böyük rezonans doğurub və geniş müzakirələrə yol açıb.**

İndiyədək Azərbaycandan tirajlanan heç bir müsahibə, açıqlama və şərh dünya müstəvisində bu qədər geniş izlənilməyib. Ölkə başçısının müsahibəsinin Tvitterdə 3 milyondan çox istifadəçi tərəfindən baxılması Azərbaycan üçün rekord göstəricidir.

Qeyd edək ki, sözügedən müsahibə zamanı təxribatçı suallarla çıxış edən BBC-nin jurnalisti Prezident İlham Əliyevin ortaya qoyduğu real faktlar qarşısına aciz qalıb. Müsahibə boyu ona ünvanlanmış qərəzli sualları səbir, təmkin və tutarlı arqumentlərlə cavablandıran dövlət başçısı avropalı jurnalistə sözün əsl mənasında "master klass" keçib.

### Həm hərb meydanında, həm də informasiya savaşında Qalib Lider

Son 17 il ərzində bütün sahələrdə qələbə qazanan Azərbaycan 44 gün davam edən İkinci Vətən Müharibəsi dövründə bizi qələbələrə aparan əsas faktorlardan biri möhtərəm Prezidentin verdiyi 30-dan çox müsahibə Onun mükəmməl diplomatiyası idi.

Ümumilikdə, Prezident İlham Əliyev müharibə dövründə xarici mediaya verdiyi müsahibələrlə yalnız döyüş meydanında deyil, informasiya müharibəsində də qalib olduğunu sübut etdi. Ali Baş Komandan xarici mediada çıxışları ilə hücum diplomatiyası sərgiləyərək tarixi həqiqətlər, Dağlıq Qarabağ münaqişəsinə dair vacib hüquqi və siyasi məqamlar barədə beynəlxalq ictimaiyyəti məlumatlandırdı. Onun gərgin əməyi və uğurlu informasiya siyasəti sayəsində dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsi təmin edildi. Dövlət başçısının dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələrdə təkcə erməni yalanları ifşa edilməyib, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyaları da iflasa uğradılıb.

Qeyd edək ki, indiyə qədər Azərbaycan tərəfdən heç bir müsahibə, açıqlama, nitq, video, çıxış xarici mediada bu qədər izlənilməyib. İndi isə, Cənab Prezidentin sayəsində artıq izlənilir. Yəni, məlum faktın özü yetərlidir və bu, Azərbaycana və onun Liderinə olan xoş münasibətin növbəti göstəricisidir.

### Prezdent İlham Əliyevin "BBC"yə müsahibəsi sosial şəbəkələrdə rezonans doğurub

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin noyabrında "BBC" telekanalı ilə baş tutmuş müsahibəsi sosial şəbəkələrdə də geniş rezonansa səbəb olub. Müsahibədə jurnalist tərəfindən səsləndirilən "senzura" və "müxalifətin sıxışdırılması" kimi uydurma ittihamlara prezidentin kifayət qədər aydın şəkildə cavab verməsi və Qərbin "ikili standartlarına" işarə etməsi sosial şəbəkə istifadəçilərinin xüsusilə diqqətini çəkib. Hələ də izlənilən bu məşhur müsahibə bu vaxta qədər 3 milyondan artıq baxış qazanıb, sosial şəbəkələrdə isə üstündən 6 ay keçməsinə baxmayaraq, müzakirə olunur. Ən əsası isə, sosial şəbəkə istifadəçiləri Prezident İlham Əliyevə öz rəğbətlərini səmimi ifadə edir, onun haqlı mövqeyinə dəstək ifadə edirlər. Məsələn, Twitter-in xarici istifadəçilərindən biri "O, haqlıdır!", digəri "O, həqiqəti söyləyir!" kimi şərhlər yazıb.

Ən əsası isə, Azərbaycan Prezidenti jurnalist Culian Assanj sualı bütün dünya dövlətlərinin informasiya sahəsində də güclü Lider olduğunu sübut etdi: "Siz cənab Assanjla baş verənləri necə qiymətləndirirsiniz? Bu, sizin ölkədə azad mətbuatın təzahürüdür?".

Bu an jurnalist özünü itirərək söhbətin mövzusunu dəyişməyə çalışıb.

Xəbər verilir ki, xarici istifadəçilər müsahibənin məhz bu hissəsini çox bəyəniblər. Onlar müsahibənin həmin fraqmentini tvitterdə paylaşaraq aktiv şəkildə şərhlər yazıblar. "Bu müsahibə "BBC" jurnalistlərinin cahilliyinin nə qədər yüksək səviyyədə olduğunu göstərir. Onlar öz elita üzvlərindən başqa heç kəsə hörmət qoymurlar. Buna görə də demokratik yolla seçilmiş liderlərimizlə eyni şəkildə davranırlar - nəzakət və hörmət nümayiş etdirmədən", - tvitter istifadəçilərindən biri yazır.

"Bu şəxs Ermənistan və Azərbaycan məsələsindən başqa, Britaniya mediasında olmayan sağlam düşüncədən və həqiqətdən danışır. Böyük Britaniyada media nəhəng biznesin və isteblişmentin maraqlarının təyin etdiyi parametrlər daxilində fəaliyyət göstərdiyi müddətcə "azad"dır: deməli, azad deyil", - Adhamh Sophur adlı istifadəçi videogörüntüyə şərhində yazıb.

Paul Brennan adlı iş adamı isə İlham Əliyevi açıq şəkildə inanılmaz zövqə və təfərrüatlara diqqət yetirən adam adlandırıb.

"Onun televiziyanın canlı efirində hakim Qərb təbliğatına dərs verməsi həqiqətən xoşuma gəldi", - çoxsaylı şərhlərdən birində deyilir.

Göründüyü kimi, bu müsahibəyə maraq hər gün artır, hazırda onu 3 milyondan çox insan izləyib. Və bu bir daha oqnu göstərir ki, indiyə qədər Azərbaycandan hər hansı bir məqalə, açıqlama, müsahibə və ya çıxış beynəlxalq arenada bu qədər rezonans doğurmayıb. Xarici KİV-lərlə baş tutmuş bu müsahibə göstərir ki, Prezident müharibə dövründə Azərbaycanın maraqlarını təkcə döyüş meydanında deyil, həm də informasiya müharibəsində müdafiə edib.

Bir sözlə, Prezident İlham Əliyevin media ilə birbaşa ünsiyyəti Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında əvəzsiz addım idi, lakin enyi zamanda ölkəmizin hazırkı inkişaf səviyyəsi, dövlət başçısının apardığı siyasi kurs, ümumbəşəri dəyərlərin cəmiyyətimizdə dövlət tərəfindən dəstəklənib qorunması ilə bağlı da beynəlxalq ictimaiyyətdə aydın təsəvvür yaratmaq baxımından çox mühüm gediş idi. Ümumilikdə, Azərbaycanın həm hərb meydanında, həm də informasiya savaşında bu nüfuzun qazanılması qalib ölkənin Fateh Sərkərdəsi - Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin nəticəsidir.

***RƏFİQƏ HÜSEYNOVA***

## Rəsmi xronika

Prezident İlham Əliyev Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 aprel tarixli 308-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 391 nömrəli, "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2008-ci il 21 noyabr tarixli 24 nömrəli və "Məhkəmələr və hakimlər haqqında", "Bələdiyyə qulluğu haqqında", "Prokurorluq haqqında", "Notariat haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Bələdiyyə üzvünün statusu haqqında", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 23 noyabr tarixli 185 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Heydər Əliyev Fondunun yaradılmasından 17 il ötür

## Minlərlə insanın ümid qapısı

İctimai-siyasi, mədəni həyatda aparıcı qüvvəyə çevrilmək, əməli fəaliyyət ilə böyük nüfuza sahib olmaq, örnəyə çevrilmək böyük məsuliyyət və zəhmətin bəhrəsidir. Əlbəttə ki, vətənpərvərlik, vətənə bağlılıq insanı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması Onun vətənə bağlılığından irəli gəlir. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Fondun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurmasına gətirib çıxarıb. Heydər Əliyev ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir.








Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirilir. Azərbaycan cəmiyyətinin yaratdığı hüquqi normalardan yararlanan və bu prinsiplər əsasında dünyaya qapı açan Mehriban xanım Əliyeva ictimai-siyasi, mədəni, sosial proseslərdə fədakarlıq nümunəsini göstərir. Sözsüz ki, Onun bu prinsipial qətiyyəti tərbiyə aldığı ocaq və ailə ilə bağlıdır. Heydər Əliyev ideologiyasını davam etdirmək və prinsipləri gerçəkləşdirmək üçün Heydər Əliyev Fondunun yaradılması onun çoxsaylı layihələrinə imza atdı. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramına uyğun olaraq Azərbaycanın bir sıra rayon və kəndlərində yeni məktəb binalarının inşa, təmir və bərpa olunaraq istifadəyə verilməsi bu görülən işlərin davamı olaraq reallaşır. Belə ki, məktəblər müasir avadanlıqlarla təchiz edilərək, dünya standartlarına uyğun qurulur ki, bu da təhsilin keyfiyyətinə müsbət təsirini göstərməkdədir. Deməli olar ki, Azərbaycanın hər bir məkanında təhsil sahəsində aparılan bu dəyişikliklər özünü büruzə verir. Azərbaycanın gənc nəsli biliyə, müasir texnologiyalara, elmə yiyələnərək, dünya təhsil sisteminə inteqrasiya olunur. Bu uğurlu addım Fondun başlıca vəzifəsi olaraq davam etdirilir.



Fondun səhiyyə ocaqlarının bərpa edilməsi və inşası ilə bağlı layihələri də öz nəticəsini vermiş bu gün tibbi müəssisələr dünya standartlarına uyğun inkişaf etmiş ölkələrdən gətirilmiş müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Belə ki, Fondun həyata keçirdiyi sosialyönlü layihələr sırasında "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və s. layihələri xüsusi olaraq vurğulamaq lazımdır.

Fondun humanitar yardımı çərçivəsində əldə etdiyi böyrək hemodializ aparatları ilə bir sıra tibb müəsisələri təmin edilmişdir. Tibbi avadanlıqlar Almaniyanın "Fresenius Medical Care" şirkəti tərəfindən Heydər Əliyev Fonduna bağışlanan humanitar yardımdır. Bununla yanaşı, Mehriban xanım Əliyevanın dünyanın bir sıra nüfuzlu tibb şirkətləri ilə beynəlxalq əməkdaşlığı çərçivəsində Fonda xeyli tibbi avadanlıq daxil olunmuşdur. Bunun sayəsində daha çox xəstə dövlət tərəfindən hemodializlə təmin olunur. Artıq regionlardakı müalicə ocaqlarında da belə aparatlar quraşdırılıb.

Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsilə şəkərli diabet xəstələrinə verilir. Bu gün ölkəmizdə uşaqlar ən keyfiyyətli insulinlə təmin olunurlar. Fondun dəstəyi ilə ölkəmizdə uşaqlar üçün qastroenteroloji sanatoriya, psixo-nevroloji mərkəz istifadəyə verilmişdir. Paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Onu da bildirək ki, səhiyyə yönümlü layihələr sırasında Heydər Əliyev Fondunun fəaliyyətində uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər də yer alır. Paytaxtımızda inşa olan Talasamiya Mərkəzi Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirildi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən və bu gün həmin xəstəliyə düçar olanların ümid yerinə çevrilən mərkəz Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunub. Burada quraşdırılan avadanlıqlar müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır. Bütün bunlarla yanaşı, Fond səhiyyənin müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi işində də yardımçı olur, təbabətin ən müasir metod və nailiyyətlərindən istifadə üçün beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir. Bu əməkdaşlıq əsasında artıq bir neçə lokal layihə həyata keçirilmişdir. Səhiyyə sahəsində görülən işlər, həyata keçirilən layihələr Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdir. Bu qayğı humanizmin ən nümunəvi göstəricisidir.

Ardı Səh. 4

# Heydər Əliyev Fondunun yaradılmasından 17 il ötür

Əvvəli Səh. 3

Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondu Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə də töhfə olaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna 500 min manat vəsait köçürdü. Heydər Əliyev Fondu daim himayəsində saxladığı bir sıra müəssisələrə koronavirusla mübarizə sahəsində dəstək göstərdi vg bu davamlıdır. Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzə, eləcə də Bakıdakı və regionlardakı psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələr, maskalar və digər qoruyucu vasitələrdən ibarət yardımlar ayrılıb.







Mehriban xanım Əliyeva Azərbaycanda əhalilinin sağlamlığının qoruyucusuna çevrilib. Hər bir insanın ümid, pənahına çevrilib. Bu da əsassız deyil. İnsanlara qayğı, ehtiram, həssas münasibət Heydər Əliyev Fondu ilə cəmiyyət arasında bir körpü salıb. Minlərlə insanın qəlbində bir ümid çırağı yandırılıb. Ümidlər boşa çıxmır. Mehriban xanım Əliyevanın mərhəməti, xeyriyyəçiliyi, humanizmi bu münasibətin formalaşmasına səbəb olub.

## Azərbaycan mədəniyyətinin dünyada təbliği



Qloballaşma prosesində Azərbaycan mədəniyyətinə xüsusi diqqət ayrılaraq, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər də diqqətdən kənarda deyil. Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafında, dünyada təbliğində əvəzsiz xidmətləri vardır. Azərbaycanın Birinci Xanımı ölkəmizdə müntəzəm olaraq keçirilən müxtəlif beynəlxalq mədəniyyət tədbirlərinin və festivallarının təşkilində mühüm rol oynayır. Beynəlxalq muğam festivalı və muğam ifaçılarının müsabiqəsi, M.Rastropoviç adına, eləcə də D.Şostakoviçin və Bülbülün yubileylərinə həsr edilmiş beynəlxalq festivallar, Qəbələ Musiqi Festivalı, Aşıqların Beynəlxalq Festivalı kimi tədbirlər məhz Mehriban Əliyevanın yaxından dəstəyi ilə həyata keçirilib. Bakıda Beynəlxalq Muğam Teatrının, Müasir İncəsənət Muzeyinin binaları tikilib, açıq səma altında "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi yaradılıb.

Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirildiyindən bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyətini xüsusi qeyd etməliyik. Azərbaycanın maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəricilərindir. Belə ki, hazırda muğam ifaçılığı sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılığı sənəti, "Kəlağayı simvolizmi və ənənəvi sənəti" və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ Atüstü Oyun ənənəsi isə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alması Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Heydər Əliyev Fondunun rolu xüsusidir.

## "Azərbaycan - tolerantlığın ünvanı"

Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında əhəmiyyəti ilə seçilir. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində Fondun həyata keçirdiyi layihələrə münasibət yüksəkdir. Mehriban xanım Əliyevanın dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir. Azərbaycanın Birinci Xanımı sivilizasiyalararası dialoqa töhfə verməklə yanaşı, məktəblərin tikintisinə, dini məbədlərin bərpasına da köməklik göstərir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazılıb. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

"Yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir"

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Odur ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə yeni layihəyə başlayıb. Fondun prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsindəki paylaşımında bildirmişdi ki, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik: "Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır".

Mehriban Əliyeva qeyd etmişdir ki, layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

17 illik fəaliyyəti dövründə həyata keçirdiyi bu və ya digər layihələr Fondun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin əsasında qeyd etdiyimiz bu və digər məsələlərin daha da geniş bir planda həyata keçirilməsi dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Prezident İlham Əliyevin "BBC News"a müsahibəsini Çinin "Weibo" sosial şəbəkəsində 35 milyondan çox insan izləyib

**Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə - ötən il noyabrın 6-da "BBC News"a müsahibəsində səsləndirdiyi fikirlər Çin ictimaiyyətinin çox böyük marağına səbəb olub.**




AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin media orqanlarının bəzi ölkələrə qarşı saxta və qərəzli məlumatlar yayması barədə sözləri oxşar problemlə üzləşmiş Çində populyar sosial şəbəkələrdə, o cümlədən "Weibo", "Wechat", "Bilibili", "Duoyin"də geniş müzakirə olunur və trendə çevrilib. "Jenmin Jibao", "China Daily" qəzetləri, Çin Mərkəzi Televiziyası, Çin Beynəlxalq Radiosu, digər nüfuzlu media qurumları, milyonlarla izləyicisi olan bloqqerlər Azərbaycan Prezidentinin "BBC News"a videomüsahibəsinin mövzuya dair hissəsini sosial şəbəkələrdə paylaşıblar. Bu videonun həştəqi gün ərzində Çinin sosial şəbəkələrində ən populyar həştəqlərdən biri olub və bunun nəticəsində video təkcə "Weibo" sosial şəbəkəsində ("Twitter"in Çin alternativi) təxminən 35 milyon dəfə izlənilib və bu rəqəm getdikcə artır. Günün bəzi saatlarında həmin həştəq üzrə videolara baxış sayı bir dəqiqə ərzində 133 minə çatıb. "Weibo" istifadəçiləri Prezident İlham Əliyevin məlum fikirləri ilə bağlı təxminən 8300 dəfə müzakirə açıblar. Yazılan şərhlərdə belə bir ümumi rəy var ki, aydın məntiqi və yüksək natiqlik məharəti olan Azərbaycan Prezidenti beynəlxalq münasibətləri və hüququ dərindən bilir. Bundan başqa, Çinin digər sosial şəbəkələrində həmin müsahibəyə aid yaradılmış müxtəlif həştəqlər də yüz minlərlə baxış sayı toplayıb.




Prezident İlham Əliyevin əsaslı arqumentlərlə səsləndirdiyi fikirlər demokratiyadan dəm vuranlara, insan haqları adı altında başqa ölkələrə təzyiq edənlərə tutarlı cavab olub. Azərbaycan Prezidentinin söylədiyi həmin fikirlər oxşar problemlə üzləşmiş ölkələrin ictimaiyyətinin demək istədiyi sözlər idi. Bu, həm də beynəlxalq miqyasda praqmatik, cəsarətli və inamlı mövqeyi ilə tanınan Azərbaycan Prezidentinə dünyada göstərilən hörmətin və inamın təzahürü, həmçinin bu məsələnin qlobal önəm daşıdığının göstəricisidir.

## Tahir Budaqov: "Ulu Öndərin xalq və dövlət qarşısında misilsiz xidmətləri var"



"Azərbaycan xalqı, o cümlədən Yeni Azərbaycan Partiyasının üzvləri Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünü böyük ehtiramla qeyd edir. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətləri var". SİA-nın verdiyi məlumata görə, bu fikirləri YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dünən Yeni Azərbaycan Partiyasının nümayəndələrinin Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarəti zamanı jurnalistlərə müsahibəsində deyib.

Tahir Budaqov bildirib ki, Heydər Əliyev dünya şöhrətli siyasətçi və dahi şəxsiyyət olmuşdur: "Alman filosofu Şopenqauerin belə bir deyimi var ki, dahi şəxsiyyəti istedadlı insanlardan fərqləndirən cəhət odur ki, istedadlı insan heç kimin vura bilmədiyi hədəfləri vuran, dahi şəxsiyyət isə heç kimin zamanında görə bilmədiyi hədəfləri vuran insandır. Heydər Əliyev istər sovet dönəmində respublikamıza rəhbərlik etdiyi vaxt, istərsə də ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti üçün o zaman bəlkə də çoxlarının dərk edə bilmədiyi, görə bilmədiyi elə bir işlər görmüşdür ki, bu işlərin xalqımız və dövlətimiz üçün bəhrəsini biz on illərdən sonra şahidi olmuşuq".

YAP sədrinin müavini qeyd edib ki, Azərbaycanın müstəqil, suveren dövlət kimi bərqərar olub inkişaf etməsində, tərəqqisində və bu gün dünya birliyində layiqli yer tutmasında Heydər Əliyev ideyalarının, onun siyasətinin əvəzsiz rolu vardır: "Bu gün də həmin siyasət uğurla davam edir. Cənab Prezident İlham Əliyev Heydər Əliyev siyasətinin davamçısı olaraq ölkəmizi daha uca, yeni zirvələrə yüksəltmişdir. Ən əsası, Ulu Öndərin ən böyük arzusu olan Qarabağın işğaldan azad olunması missiyasını cənab Prezident İlham Əliyev yerinə yetirmişdir. Buna görə də, biz bu gün Ulu Öndərimizin məzarını tamamilə başqa bir əhval-ruhiyyədə, ərazi bütövlüyünü təmin edən ölkənin vətəndaşları kimi ziyarət edirik. Bu gün Ulu Öndər Heydər Əliyevin və Zərifə xanım Əliyevanın ruhları şaddır. Azərbaycan xalqının gözü aydın olsun. Hesab edirəm ki, bizi qarşıda hələ yeni-yeni zəfərlər gözləyir".

***Ceyhun Rasimoğlu***

## Birinci vitse-prezident Mehriban Əliyeva: Bu gün Şuşa azaddır!



**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstagram" hesabında Şuşa ilə bağlı paylaşım edib. SİA-nın məlumatına görə, paylaşımda deyilir:**

"Həsrət və qüssə dolu uzun illərdən sonra 8 may tarixi bizim üçün tamamilə başqa məna kəsb edib. Bu gün Şuşa azaddır! Ali Baş Komandanın rəhbərliyi ilə düşməni sarsıdan və Azərbaycanın ərazi bütövlüyünü bərpa edən rəşadətli əsgər və zabitlərimizin, Silahlı Qüvvələrimizin mərdliyi, iradəsi və ruh yüksəksliyi qarşısında baş əyirik. Vətən naminə həlak olmuş bütün şəhidlərimizin nurlu xatirəsini ehtiramla yad edirəm! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

## YAP nümayəndələri Fəxri xiyabanda olublar





Mayın 8-də Yeni Azərbaycan Partiyasının nümayəndələri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. SİA-nın verdiyi məlumata görə, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.



# Şuşa şəhərinin şöhrəti özünə qaytarılır

*Dövlət başçısının Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi*

**Qədim tarixi olan Şuşa tarixin müxtəlif dönəmlərində "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılmışdır.**




Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi olan Şuşa şəhəri tarixən Azərbaycanın ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. Azərbaycan xalqının tarixi ənənələrinin simvolu olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində yaranıb və daimi insan məskəninə çevrilib. Mənbələrə istinadən deyə bilərik ki, Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr ifadə etmişlər. Belə ki, C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazırdı ki, Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır. Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir. XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Xalq əfsanəsinə görə, isə bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" (şüşə) adlandırmışlar. Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud idi.

Sovet dövründə Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Dağlıq Qarabağda milli ruhun oyadılması olmuşdur. Ümummilli Lider Heydər Əliyev bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət ayırırdı. Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Ulu Öndər Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır. Ümummilli Lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edildi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı.Ermənilərin Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində 1992-ci il mayın 8-də Şuşa şəhəri işğal edildi və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasəti həyata keçirildi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv ediblər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun, müğənni Bülbülün, musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeylərinin fondları qarət edilib. Şuşanın abidələr şəhəri olduğunu söyləyən Ümummilli Lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanından xalqa etdiyi müraciətdə Şuşa şəhərinin azad edilməsi müjdəsini verdi. Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olundu. Qısa bir zamanda şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Dövlət başçısının Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib.Sərəncamda qeyd olunduğu kimi, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır.

***Zümrüd BAYRAMOVA***



## "Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi şəhərin milli kimliyini özünə qaytardı"

Bu gün Şuşa şəhərinin erməni təcavüzkarları tərəfindən işğalından 29 il keçir. Lakin bu il əvvəlki illərdən fərqli olaraq Şuşanın tezliklə yağı düşməndən azad edilməsini arzu etmirik. Düz 6 ay bundan əvvəl, 2020-ci il noyabr ayının 8-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Şuşa şəhərinin düşmən işğalından azad edildiyini elan etdi. Ali Baş Komandanın rəhbərlik etdiyi Şanlı Ordumuz uğurlu əkshücum əməliyyatı ilə düşməni döyüş meydanında ağır məğlubiyyətə düçar etdi. Əzəli və əbədi torpaqlarımızın 30 ilə yaxın davam edən işğaldan sonra düşmən tapdağından azad edilməsi nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Aparılan hərbi əməliyyatlar istər seçilmiş taktikaya, istərsə də hərbi qulluqçularımızın göstərdiyi şücaətə görə dünyanı lərzəyə saldı. Xüsusilə də qəhrəman oğullarımızın çətin və sıldırımlı qayalardan, dağlardan aşaraq Şuşa şəhərini işğaldan azad etməsi müharibənin taleyində misilsiz rol oynadı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

A.Əliyev bildirib ki, Şuşa şəhərinin işğaldan azad edilməsi ilə şanlı tariximizə daha bir parlaq hadisə daxil oldu və tarixi ədalət bərpa edildi. Dövlətimizin başçısının "Şuşa bizimdir! Qarabağ bizimdir!" deyərək xalqımızı təbrik etməsi heç zaman unudulmayacaq.

Şuşa şəhəri ölkəmizin mədəniyyət paytaxtı olmaqla yanaşı, tariximizdə çox böyük və xüsusi əhəmiyyəti olan bir şəhərdir. Çünki Şuşa şəhəri xalqımızın zəngin mədəniyyətini, memarlığını dünyaya tanıtdırmışdır. Hələ ümummilli lider Heydər Əliyev tərəfindən 1977-ci ildə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" Qərar qəbul edilərək Şuşa şəhərində olan tarixi abidələrin qorunması, mədəniyyət və incəsənət xadimlərinin, habelə görkəmli şəxslərin abidələrinin abadlaşdırılması təmin edilmişdi. Bu cür gözəl şəhər, təəssüflər olsun ki, Erməni vandalizminin qurbanı olmuş, erməni barbarları şəhərdə olan 170-dən çox memarlıq abidəsi sayılan yaşayış binasını, mədəniyyət və tarixi abidələri, təhsil müəssisələrini, muzeyləri dağıtmış, məbədgah və məscidləri təhqir etmişlər.

Milli Məclis sədrinin müavini bildirib ki, işğaldan azad olunduqdan sonra dövlətimizin başçısının göstərişinə əsasən, işğal altında olan bütün ərazilərə vurulmuş ziyanla bərabər, Şuşaya dəymiş ziyan da hesablanmış, şəhərdə çox böyük sürətlə abadlıq-quruculuq işlərinə başlanmış, hazırda da uğurla davam etdirilir. Şuşa şəhərində aparılan abadlıq-quruculuq işlərini sürətlə davam etdirmək məqsədilə şəhərə dövlətimizin başçısının ilk xüsusi nümayəndəsi təyin edilmişdir.

Dünən Prezident İlham Əliyevin Şuşanın mədəniyyət paytaxtı elan edilməsi barədə Sərəncam imzalaması heç də təsadüfi deyildi. Çünki son 29 il ərzində ermənilər hər il 8 may tarixini xüsusi təntənə ilə qeyd edir və Şuşanı 1992-ci il mayın 8-də işğal etməklə öyünürdülər. Düşmənlərimiz müxtəlif ölkələrdə lobbiçilik fəaliyyəti ilə məşğul olaraq, işğala beynəlxalq dəstək qazandırmaq məqsədilə Şuşanın tarixini təhrif edərək onu "Şuşi" kimi təqdim etməyə cəhd göstərirdilər. Lakin bu gün onlar Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı olaraq qəbul etməyə və qarşılamağa məcburdurlar. Tarixi ədalət bərpa olundu, Şuşa işğaldan azad edildi, 1989-cu ildə Cıdır düzündə keçirilmiş və Şuşanın rəmzi olan "Xarıbülbül" musiqi festivalı 32 ildən sonra ilk dəfə Heydər Əliyev Fondu tərəfindən yenidən Şuşada təşkil olunacaq.

"Əminik ki, doğma əllərdə olan Şuşa şəhərində bütün mədəni abidələr bərpa edilməklə, yeni binalar, evlər tikilməklə tezliklə bu şəhər dünyanın ən gözəl guşələrindən birinə çevriləcəkdir, - deyə A.Əliyev vurğulayıb.

## Rauf Əliyev: "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi böyük əhəmiyyət daşıyır"

**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 may tarixində "Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncam imzalaması böyük əhəmiyyət daşıyır. Hələ 1977-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir.**

Həmin qərar nəticəsində Şuşa şəhərində tarixi - mədəniyyət abidələrin qorunması və bərpa edilməsi, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Rauf Əliyev deyib.



Deputat bildirib ki, Ermənistanın Azərbaycana qarşı apardığı işağalçılıq siyasəti nəticəsində 1992-ci ilin mayın 8-də qədim Şuşa şəhəri düşmən tərəfindən işğal edilmiş və şəhərdə tarixi-mədəniyyət abidələri yerlə yeksan edilib: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu 44 gün davam edən Vətən Müharibəsində Ermənistanı acı məğlubiyyətə uğradaraq kapitulyasiya aktına imza etməyə məcbur etdi. Qəhrəman Ordumuz tarixi ədaləti bərpa etmiş və 2020-ci ilin noyabr ayının 8-də Şuşa şəhərini işğaldan azad etmişdir. Bu tarixi qələbədən sonra düşmən təslim olmağa məcbur olmuşdur.

Cənab Prezidentin tapşırığı ilə Şuşa şəhərinin, onun mədəni-tarixi abidələrinin bərpası istiqamətində bərpa-quruculuq işlərinə başlanmış və işlər sürətlə davam etdirilir. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və diqqətlə yanaşılmasını tələb edir. Şuşada həyata keçirilən bərpa-quruculuq işləri, Prezident İlham Əliyev cənablarının "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncamı bu diqqət və qayğının bariz nümunəsidir".




# Alman faşizmi üzərində qələbədən 76 il ötür

**9 may - alman faşizmi üzərində qələbə tarixidir. Həmin tarixdən düz 76 il ötür. Elə də qısa zaman deyil. Gör neçə bahar, qış ötüb. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş azərbaycanlıların qəhrəmanlığı, şücaəti yaddaşlarda həmişə yaşayır. Qürurlanırıq ki, minlərlə vətən oğlunun İkinci Dünya müharibəsindəki qəhrəmanlığı müxtəlif xalqlar tərəfindən öyrənilir və xalqımıza məxsus ərənlik bir nümunəyə çevrilib. Müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi əlbəttə ki, bu savaşda Azərbaycan oğullarının rolunun böyük və əvəzsiz olduğunu göstərməklə yanaşı, igidliyindən də söz açır.**

Əlbəttə ki, müharibədə Azərbaycanın müsəlləh əsgərləri silaha sarılaraq alman faşistləri ilə üz-üzə dayandılar. Gərgin bir döyüş yolu keçdilər. Müharibə başlanandan keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi, respublikanın 700 mindən çox oğlan və qızları cəbhəyə yola salındı. Onların təxminən yarısı döyüş meydanlarında həyatlarını itirdilər. 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər şəhərlərin düşməndən azad edilməsində rəşadət göstərmiş oldular. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak etdilər. Xatırladaq ki, Berlinə ilk dəfə daxil olan hərbi hissələr içərisində 416-cı diviziyası da var idi. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində qeyd edib ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib: "Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb". Berlin uğrunda döyüşlərdə kapitan X.Gülməmmədovun batalyonu xüsusilə fərqlənib. Kayzerin sarayı üstündə Qələbə bayrağını ilk dəfə mayın 1-də sancanlardan biri leytenant Vahab Osmanov düşmən gülləsindən həlak olub. Brandenburq qapıları üstünə mayın 2-də qələbə bayrağını taxanlardan biri isə leytenant A.Məcidov və onun döyüşçüləri olublar. Bu tarixi qələbədə Azərbaycanın, onun övladlarının və neftinin əhəmiyyəti böyükdür. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının istifadə etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşürdü. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçuşlar həyata keçirən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynadı. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərərək, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəallıq göstərdi. 1941-1945-ci illərin alovunu Azərbaycanın hər bir vətəndaşı yaşıyıb. Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçünış günü 11-2 saata qaldırılmışdı. Məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq, gündəlik tələbat və çox işlənən sənaye məhsullarının satışıüzrə kartoçka sistemi tətbiq edilmişdi. Orduya səfərbər edilmiş işçilərin yerinə qadınlar və yeniyetmələr cəlb olunmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdılar. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsədə, müharibənin əvvəlindən axırınadək, bu meydanda fəal iştirak etdi. Bakıda - indiki Səttərxan adına zavodda müharibə üçünsilah-susat istehsal olunurdu. "Katyuşa" raketi, "Şpakin pulemyotu", "YAK- " qırıcı təyyarəsi yığılırdı. Bütün qüvvələr faşizm üzərində qələbəyə yönəldilmişdi. Azərbaycanda hazırda Böyük Vətən müharibəsi veteranları yaşayır. 9 may-faşizm üzərində qələbədən 76 ilötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var, müharibənin canlı şahidləri. Həmin illərdə baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan insanların qələbə istəyiilə Berlinə qədər getmələri, fədakarlıqları və ərənlikləri yaddaşlardan, tariximizdən heç vaxt silinməyəcək.

## Ölkəmizdə müharibə veteranlarına qayğı dövlət siyasətinin əsas istiqamətlərindən biridir



**"Tarix bu gün də bilməlidir ki, İkinci Dünya Müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur"**



Böyük Vətən müharibəsində od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Veteranlara ikinci həyatı isə öz diqqət və qayğısı ilə Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", deyən Dahi Öndər Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın Qızıl Fondu" adlandırırdı.

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. "Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik", deyən dövlət başçısı Azərbaycanda veteranların diqqət və qayğı ilə əhatə olunduğunu bildirib.Azərbaycan Prezidenti İlham Əliyev İkinci Dünya müharibəsində Qələbənin 76-cı ildönümü ilə əlaqədar "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb. Bu Sərəncam həmin kateqoriyadan olan vətəndaşlara göstərilən yüksək diqqət və qayğının növbəti nümunəsidir. Sərəncama əsasən, Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 4,8 milyon (dörd milyon səkkiz yüz min) manat vəsait ayrıldı. Sərəncam ümumilikdə 6083 nəfərə şamil olunub. Onlardan 181 nəfəri İkinci Dünya müharibəsi iştirakçısı, qalanları İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş, habelə sənəddə nəzərdə tutulan digər şəxslərdir.Görülən işlər Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin daha bir nümunəsidir.

*Zümrüd BAYRAMOVA*

# Liderlik zirvəsini fəth edən Dahi

## *Heydər Əliyevin həyat yolu və siyasi fəaliyyəti Onu bu ucalıqda sönməz məşələ çevirdi*

### Ulu Öndərin xilaskarlıq missiyası: Vətənə, xalqa bağlılıq

Dünya təcrübəsi göstərir ki, güclü, ölkəsinin, xalqının gələcəyini düşünən lideri olan dövlətlər yüksək inkişaf yolu keçir, gələcəyə böyük inamla addımlayır, imzalar içində imzası ilə fərqlənir. Həmçinin bu reallıq da hər zaman önə çəkilir ki, keçmişini unutmayan, bu günü ilə qürur duyan və gələcəyə doğru böyük inamla irəliləyən xalq tarixin sınaqlarından şərəflə çıxır, böyük uğurlara imza atır, yeni prioritetlərin fonunda yüksək zirvələri fəth edir. Zəngin dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı dünyaya bu nümunəni də göstərib. Xalqımız XX əsrin əvvəllərində qazandığı müstəqilliyi qısa zamanda obyektiv səbəblər ucbatından itirsə də bu uğursuzluq onun sabaha inamını itirmədi, əksinə, müstəqil və azad yaşamaq arzusu daha da alovlandı. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycan nəinki yenidən onu itirmək, hətta bir dövlət kimi tarix səhnəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı. Həmin dövrün iqtidarının səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu, hakimiyyətin ən yuxarı eşalonunda yüksək məqama sahib olmaq məqsədilə biri-birini didib-parçalamağa hazır olan üzdəniraq "liderciklərin" şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları Azərbaycanı "olum, ya ölüm" dilemması qarşısında qoymuşdu. Ölkəmizdə vətəndaş müharibəsi başlanmışdı. Respublikada meydan sulayan anarxiya, xaos, özbaşınalıq şəraitində bölgələrdə mərkəzdənqaçma tendensiyası gündəngünə güclənirdi. Şimalda "Sadval" separatizmi, cənubda qondarma "Talış-Muğan respublikası" xülyası, mərkəzdə müxtəlif siyasi qüvvələr arasında hakimiyyət uğrunda amansız mübarizə ölkəni uçuruma aparırdı. Həmin ərəfədə silahlı qüvvələrin torpaqlarımızın Ermənistanın getdikcə daha intensiv xarakter alan hərbi təcavüzündən qorunmasına deyil, ayrı-ayrı dairələrin maraqlarının müdafiəsinə xidmət etməsi ərazilərimizin işğalına şərait yaradırdı. Xüsusilə özünün yarıtmaz idarəçiliyi nəticəsində ölkəni vətəndaş müharibəsi həddinə çatdıran xəyanətkar AXC-Müsavat hakimiyyətinə qarşı 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş verən hərbi qiyam vəziyyəti daha da gərginləşdirirdi. Bu mənzərə o dövrdə hakimiyyətdə olanların şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmalarının göstəricisi idi.



***Vüqar Rəhimzadə,***
***"91-lər"in üzvü, siyasi elmlər doktoru,***
***"İki sahil" qəzetinin baş redaktoru,***
***Əməkdar jurnalist***

Qeyd etdiyimiz kimi, Ermənistanın hərbi təcavüzünün genişləndiyi həmin mürəkkəb tarixi şəraitdə hakimiyyət hərislərinin kreslo uğrunda mübarizəsi xalqa ağır məşəqqətlər yaşatdı. O dövrdə özbaşınalıqlar, AXC-Müsavat hakimiyyətinin ümumiyyətlə, idarəçilik sisteminin olmaması, 1993-cü ilin əvvəllərindən ölkədə meydan sulayan və ayrı-ayrı dairələrin siyasi maraqlarına xidmət edən silahlı dəstələrin özbaşınalığının Azərbaycanın daxilində qardaş qırğınına və vətəndaş müharibəsinə zəmin yaratması, bütün bunlar azmış kimi bölgələrdə separatçılıq və mərkəzdənqaçma meyillərinin güclənməsi Azərbaycanın bir dövlət kimi varlığını sual altında qoymuşdu. Belə bir çıxılmaz vəziyyətdə Azərbaycan xalqı o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik edən özünün sınanmış liderinə, ulu öndər Heydər Əliyevə üz tutdu.



Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya gəlməsi Azərbaycanın gələcək taleyini düşünən hər bir vətənpərvər soydaşımızın qəlbində sönməz ümid çırağı yandırdı. Böyük məşəqqətlər yaşayan xalqımız bir daha əmin oldu ki, Ümummilli Lider Azərbaycanı düçar olduğu fəlakətdən xilas edəcək. Belə də oldu. Azərbaycanda vətəndaş qarşıdurmasının dayandırılması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsinin aradan qaldırılması həmin o tarixi günlərdən başlandı. Gəncə hadisələrinin səbəb və nəticələrini öyrənmək üçün iyunun 13-14-də ziyalılardan, ağsaqqallardan ibarət bir qrupla Gəncəyə gedən Ulu Öndər AXC-Müsavat iqtidarının yetirməsi, o günədək, necə deyərlər, ipə-sapa yatmayan qiyamçı polkovnik Surət Hüseynovla, sadə vətəndaşlarla, hərbçilərlə görüşərək siyasi böhranın, qarşıdurmanın aradan qaldırılması üçün söhbətlər apardı, ölkəni düçar olduğu siyasi böhrandan xilas etməyin yolları barədə tövsiyələrini bildirdi. Görüşün nəticələri barədə iyunun 15-də keçirilən Azərbaycan Ali Sovetin fövqəladə sessiyasında fikirlərini açıqlayan Ümummilli Lider əminliklə bildirdi ki, göstərilən səylər, aparılan danışıqlar bu gərginliyi aradan qaldıracaq. Dahi rəhbər dönə-dönə vurğuladı ki, bu gərginlik, qarşıdurma yalnız sülh, barışıq, qarşılıqlı anlaşma, danışıqlar yolu ilə həll olunmalıdır.

Məhz 1993-cü ilin 15 iyun günü çağdaş Azərbaycanın tarixinə əlamətdar hadisə kimi yazıldı. Sessiyada deputatların yekdil səsverməsi ilə ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu seçim ilə Azərbaycanın xilas yolunun, müstəqilliyimizin əbədiliyinin təməli qoyuldu. Həmin gün Azərbaycanın dövlətçilik tarixinə Milli Qurtuluş Günü, əbədiyyət rəmzi kimi yazıldı.

Ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdışının ilk mərhələsində hər bir inkişafın əsasında dayanan sabitliyi təmin etdi, "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisini önə çəkərək iqtisadiyyatın inkişafında neft amilinə böyük dəyər verdi, bugünümüz üçün möhkəm iqtisadi təməl yaratdı, əsl liderə xas olan səbr, qətiyyət, müdriklik nümayiş etdirərək bütün çətinliklərə qalib gəldi.

Ötən əsrin 90-cı illərinə qısa ekskurs edərkən belə bir məqamı xüsusi vurğulamalıyıq ki, Ümummilli Liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə gördüyü işlər də dahi şəxsiyyətin bugünümüzə xidmət edən addımları sırasındandır. Həmin dövrdə Ulu Öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı, himni, gerbi bərpa olundu, dünyanın müxtəlif dövlətlərinə səpələnmiş soydaşlarımızın birliyinə hesablanmış 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təsis edildi. Dahi şəxsiyyətin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qaydışından sonra diaspor quruculuğu dövlət siyasətinin əsasına çevrildi. Ulu öndər Heydər Əliyev harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları bir amal-azərbaycançılıq ideyası ətrafında sıx birliyə çağırdı. Ümummilli Liderin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" tezisi hər bir Azərbaycan vətəndaşının həyat amalına çevrildi. Ulu öndər Heydər Əliyev dönə-dönə bəyan edirdi ki, müstəqillik yolunda ilk addımları atan dövlətin varlığının təsdiqlənməsində ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlıq, diaspor quruculuğu vacib amillərdir. Müstəqilliyimizin ilk illərində Azərbaycan haqqında məlumatsızlıq erməni yalanlarının ayaq tutub yerimənə səbəb olmuşdu. Ümummilli Lider müstəqil dövlətimizin başçısı kimi ilk gündən diqqətini Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılmasına yönəltdi. Təbii ki, dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın bir araya gətirilməsi, vahid mərkəzdən idarə olunmaları da bu prosesə öz müsbət təsirini göstərirdi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabr ayının 9-10-da Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi diaspor quruculuğu, bir sözlə, Azərbaycanın dünyaya təqdimatı istiqamətində növbəti addım oldu. Torpaq, Vətən sevgisi bütün dünya azərbaycanlılarını vahid amal uğrunda birləşdirdi. Ümummilli Lider bu çağırışı da edirdi ki, suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur.

"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" söyləyən ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu 10 il müddətində daim bu tezisinə sadiq qalaraq dövlətçiliyimizi, xalqımızı gözlənilən bəlalardan xilas etdi. 1993-cü ilin iyununda törədilən Gəncə hadisələri, separatçı Əlikram Hümbətovun başçılığı ilə təşkil olunan Lənkəran qiyamı, 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında Bakıda dövlət çevrilişlərinə cəhdlərin qarşısını xalqla birliyi ilə alan ulu öndər Heydər Əliyev müstəqilliyimizin əbədiliyinin qarantı oldu. Dövlət çevrilişinə cəhdlər zamanı bir çağırışı, xalqa müraciəti ilə milyonlarla insanı ətrafına toplamağa qadir olan xalqın ümid yeri, qətiyyəti, sarsılmaz siyasi iradəsi, cəsarəti, ən nəhayət Vətənə bağlılığı ilə taleyin ən çətin sınaqlarından alnı açıq, üzü ağ çıxan dahi şəxsiyyət Heydər Əliyevin əzəməti qarşısında cılız görünən təxribatçılar qısa müddətdə tərksilah edildi. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri göstərdi ki, dövlətin qorunması, müstəqilliyin əbədiliyi üçün xalq-iqtidar birliyi silahdan qat-qat artıq gücə malik olan həlledici amildir.

### "91-lər" Yeni Azərbaycan Partiyasının "qızıl fondu"dur

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin xalqımız, dövlətimiz qarşısında xidmətlərindən biri də təbii ki, bu gün nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Partiyanın yaradıldığı dövrün xarakteristikası hər kəsə məlumdur. Xalqın istəyini özündə əks etdirən, Yeni Azərbaycan Partiyasının qızıl fondu kimi dəyərləndirilən "91-lər"in üzvü kimi bu fikri böyük fəxr hissi ilə qeyd edə bilərəm ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə belə bir partiyanın yaradılması, eyni zamanda, xalqın təkidli tələbi ilə dahi şəxsiyyətin hakimiyyətə qayıdışı həmin dövrün tələbi, ortaya çıxan zərurət, bugünümüz üçün möhkəm təməl idi. Əvvəldə də qeyd etdiyim kimi, müstəqillik tariximizin ilk illəri xaos, anarxiya, özbaşınalıq, iqtisadi böhran dövrü kimi xarakterizə olunur. Yaşananların fonunda xalqın sabaha ümidi yox idi. Belə bir çətin məqamda xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi kimi 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti, dahi şəxsiyyətin müraciətə "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabı itirilən ümidlərin bərpa olunacağına inam yaratdı. İstər müraciətə, istərsə də Ümummilli Liderin cavabına diqqət yetirsək görərik ki, hər iki tarixi sənəddə Azərbaycanın müstəqilliyinin bir sərvət olduğu və onun qorunmasının vacibliyi öz əksini tapır. Yeni Azərbaycan Partiyası öz adında bütün istəklə-

# Liderlik zirvəsini fəth edən Dahi

## *Heydər Əliyevin həyat yolu və siyasi fəaliyyəti Onu bu ucalıqda sönməz məşələ çevirdi*

ri, arzuları birləşdirir. "91-lər"in müraciətində xalqı bu çətin vəziyyətdən xilas edəcək partiyanın yaradılması və ona Heydər Əliyev kimi yüksək idarəçilik qabiliyyətinə, dövlətçilik təcrübəsinə, siyasi bacarığa, geniş dünyagörüşünə malik bir şəxsiyyətin rəhbərlik etməsinə ehtiyacın olduğu vurğulanırdı. Ümummilli lider Heydər Əliyevin yeni yaradılacaq partiya üçün "Yeni Azərbaycan" adını məqsədəuyğun bilməsi də təsadüfi deyildi. Partiya müxalifət partiyası kimi yaransa da xalqa, dövlətə qarşı müxalifətdə deyildi, milli maraqlarımız, dövlətçiliyimiz bu siyasi təşkilatın tutduğu xəttin əsasını təşkil edirdi. YAP yarandığı gündən indiyədək əqidəsinə, tutduğu yola sadiqliyi ilə diqqət çəkib və bu yol ona hər zaman uğurlar qazandırıb. Yaxın tariximizə nəzər yetirsək görərik ki, YAP yarandıqdan 7 ay sonra iqtidar partiyasına çevrildi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın, eyni zamanda, Yeni Azərbaycan Partiyasının həyatında yeni bir mərhələnin təməlini qoydu. Yeni Azərbaycan Partiyası adında ehtiva etdiyi məqsəd və məramа çatmaq üçün ciddi səylər göstərdi, uğurlu siyasəti ilə milyonların partiyasına çevrildi. Zamanın yaddaşına söykənərək bu fikri böyük fəxr hissi ilə qeyd edirik ki, YAP xalqın istəyi, zamanın tələbi ilə yaranan partiyadır. Ulu öndər Heydər Əliyevin fikirlərinə istinad etməklə deyə bilərik ki, YAP Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən yaranan zərurətdir: "O, bir adamın istəyi ilə yaranan partiya deyildir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan adamların şəxsi təşəbbüsü ilə, onların ətrafında toplaşan adamların təşəbbüsü ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərəsinin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında bu məqamı xüsusi qeyd etmişdir ki, o vaxt partiya yaratmaq fikrim yox idi. Hər zaman xalqına sədaqətlə xidmət etdiyini vurğulayan Ulu Öndər bildirmişdir ki, amma Moskvada yüksək vəzifələrdən kənarlaşdırılandan, istefaya gedəndən sonra ətrafımda cərəyan edən ədalətsizliyi və on illər boyu sədaqətlə xidmət etdiyim hökumətin, partiyanın təzyiqlərini, təqiblərini görərkən yenidən siyasətə qayıtmaq fikrində olmadım. Hesab etdim ki, həyatda öz missiyamı yerinə yetirmişəm, onun qiymətini isə gələcək, tarix verəcəkdir: "Məni siyasi həyata qayıtmağa məcbur edən 1990-cı ildəki Yanvar hadisələri oldu".

Siyasi həyata qayıtmağını şərtləndirən amillərdən bəhs edən ulu öndər Heydər Əliyev bütün addımlarının kökündə torpaq, Vətən sevgisinin əsas yer tutduğunu önə çəkirdi. Təsadüfi deyildir ki, Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı ziyalılarımızın müraciətinə cavabında da Ümummilli Lider müstəqilliyi tarixi nailiyyətimiz kimi dəyərləndirərək onu təhlükə qarşısında qoymağın mümkünsüzlüyünü xüsusi vurğulamış və bu inamı ifadə etmişdir ki, belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər: "Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram".



1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə öz təsis konfransını məlum səbəblərdən Naxçıvanda keçirən Yeni Azərbaycan Partiyası bu gün sıralarında 760 mindən artıq üzvü birləşdirir. YAP-ın sıralarının kəmiyyət və keyfiyyət baxımından günbəgün zənginləşməsi, uğurlar, qələbələr partiyası kimi böyük nüfuz qazanması sözsüz ki, ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətin, möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətə inamın göstəricisidir.

Əbəs yerə deyilmir ki, tarix hər bir hadisənin önəminin açıqlanmasında yardımçıdır. Artıq bu il Yeni Azərbaycan Partiyasının yaradılmasının 29 ilini arxada qoyacağıq. Ötən 29 il partiyanın fəaliyyətinin dəyərləndirilməsi baxımından mühüm hadisələrlə zəngindir. Son 17 ildə Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Azərbaycan Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası inkişaf edir, təkmilləşir, yeniləşir. Partiyaya xalqın sevgisi sonsuzdur. 1993-cü ildən indiyədək ölkəmizdə keçirilən bütün seçki kampaniyaları bu reallığın təsdiqidir. Ümumiləşdirmə aparsaq əminliklə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin bildirdiyi kimi, Yeni Azərbaycan Partiyasına xidmət etmək xalqa, dövlətə xidmət etmək deməkdir. Azərbaycanın müstəqillik tarixinin əsas bələdçisi olan Yeni Azərbaycan Partiyası populizmdən uzaqlığı, real işləri ilə xalqın dəstəyini qazanıb və bu dəstək davamlıdır. Ötən 29 ildə partiyanın qazandığı uğurlar gələcəyin aydın mənzərəsini yaradır.

Yeni Azərbaycan Partiyasının bu il martın 5-də keçirilən VII qurultayında dövlətimizin başçısı İlham Əliyev Ulu Öndərin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın, Yeni Azərbaycan Partiyasının uğurlarından bəhs etməklə yanaşı, "91-lər"in də fəaliyyətini yüksək dəyərləndirmişdir. "Mən bu gün bir daha o vaxt milli maraqları hər şeydən üstün tutan "91-lər"i qeyd etmək istəyirəm, onların fəaliyyətini yüksək qiymətləndirirəm" söyləyən Prezident İlham Əliyev bu inamı ifadə etmişdir ki, "bundan sonra da onlar fəal işlərlə məşğul olacaq, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcək və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır". Prezident kimi hər zaman "91-lər"in fəaliyyətini yüksək qiymətləndirdiyini bildirən dövlətimizin başçısı onu da vurğulamışdır ki, təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər: "Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular. Faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Ondan sonra heç bir il keçməmiş - 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başlandı". Yeni Azərbaycan Partiyasının Sədri bu çağırışı da etmişdir ki, biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər: "Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın, bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox. Halbuki 1991-ci ilin 18 oktyabrını biz Müstəqillik Günü kimi qeyd edirik. Ancaq hər kəs bilməlidir ki, o, bizdən asılı olan proseslər deyildi. Azərbaycan hətta gecikmişdi. Artıq bir çox keçmiş müttəfiq respublikalar öz müstəqilliyini elan etmişdilər. Sovet İttifaqı demək olar ki, dağılırdı. Artıq parçalanma prosesləri gedirdi. Nəyi gözləyirdilər 18 oktyabra qədər. Ondan əvvəl müstəqilliyi elan etmək olmazdımı? Əlbəttə, olardı. Ona görə bizim əsl müstəqillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır".

Böyük inamla qeyd edirik ki, milyonların partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının güc mənbəyi ulu öndər Heydər Əliyevin zəngin irsi və möhtərəm Prezidentimiz İlham Əliyevin siyasi fəaliyyətinin uğuru, qüdrətli Azərbaycanı gələcək inkişafa aparan yoldur.

### Azərbaycanın bu günü üçün möhkəm təməl: 1993-2003-cü illər

Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra yenidən qurulan Azərbaycan qısa müddətdə dünya birliyinin layiqli üzvünə çevrildi. Sabitliyin yaradılması ilə iqtisadi inkişafın da əsası qoyuldu. Bu fakt inkaredilməzdir ki, Azərbaycan yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə daim dünyanın diqqətində olub. Müstəqilliyimizin ilk illərində ölkədə xaosun, anarxiyanın, özbaşınalıqların hökm sürməsi ölkəmizlə iqtisadi əməkdaşlıqda maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb olurdu. Lakin ulu öndər Heydər Əliyevin yaratdığı sabitlik, həyata keçirdiyi "açıq qapı" siyasəti xarici iş adamlarının ölkəmizlə əməkdaşlığa maraqlarını artırdı, Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. 1994-cü il mayın 12-də ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində Ermənistanla atəşkəs sazişinin imzalanması sabitliyin daha da möhkəmlənməsinə, bütün sahələrdə uğurlu addımların atılmasına böyük zəmin yaratdı. Belə ki, həmin il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı ki, bununla da Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi. Bu sazişdən sonra onlarla müqavilənin və Anlaşma Memorandumunun imzalanması Azərbaycana olan inamın göstəricisi idi. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu icrası nəticəsində Azərbaycanın iqtisadi imkanlarının artması fonunda ölkəmizin maliyyə imkanları da genişləndi ki, bu da öz növbəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımların atılmasını şərtləndirdi. Ulu öndər Heydər Əliyev bildirmişdir ki, neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur. Ümummilli Liderin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondu da məhz neft gəlirlərini idarə olunmasında şəffaflığın qorunmasına xidmət edir. Belə ki, Fondun vəsaitləri hesabına maliyyələşən sosial-iqtisadi layihələrin uğurlu icrası nəticəsində ümumilikdə ölkənin hərtərəfli inkişafı təmin edilir.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlətçiliyimizin əsasları quruldu. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan Milli Konstitusiyamız Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda atdığı addımlar üçün təkmil mexanizmdir. Dövrün və zamanın tələblərinə uyğun təkmilləşmə bu ali sənədimizdə də öz əksini tapıb. Belə ki, Konstitusiyanın qəbulundan ötən 26 ildə 3 dəfə sənədə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsi keçirilib. Ölkəmizdə demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributlar bərqərar olunub. İnsan hüquq və azadlıqlarının qorunması, azad və müstəqil mətbuatın formalaşması, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik və beynəlxalq standartlara uyğun keçirilməsi üçün zəruri addımlar atılıb. Bir sözlə, 1993-2003-cü illəri çağdaş tarixinə sabitlik, dirçəliş dövrü kimi yazan Azərbaycan Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində inkişaf edərək qüdrətli dövlətə, dünyada söz sahibinə çevrilib. Vaxtilə xəyal hesab edilən transmilli enerji və nəqliyyat layihələri uğurla reallaşdırılıb. Azərbaycanın iqtisadi müstəqilliyinin təmin edilməsi siyasi mövqeyinin möhkəmlənməsində əhmiyyətli rol oynayıb. Azərbaycan yeni dostlar, tərəfdaşlar qazanaraq beynəlxalq münasibətlər sistemində yerini və rolunu daha da gücləndirib. Dövləti, xalqı qarşısında misilsiz xidmətlər göstərmiş ulu öndər Heydər Əliyevin dünənimizin, bugünümüzün və sabahımızın əsası kimi dəyərləndirilən ideyaları yaşayır, yolumuzu daim işıqlandırır, yeni-yeni hədəfləri şərtləndirir.

Ardı Səh. 10

# Liderlik zirvəsini fəth edən Dahi

## *Heydər Əliyevin həyat yolu və siyasi fəaliyyəti Onu bu ucalıqda sönməz məşələ çevirdi*

Əvvəli Səh. 9

Dahi şəxsiyyətin ən böyük arzusu, istəyi Dağlıq Qarabağ münaqişəsinin həlli, torpaqlarımızın işğaldan azad edilməsi idi. Bunun üçün vacib olan bütün addımları atmışdı. Ümummilli Lider münaqişənin həllində vacib amilləri qeyd edərkən dövlətin qətiyyətini, xalqın iradəsini, beynəlxalq dəstəyi xüsusi vurğulayırdı. Dövlətimizin dəyişməz mövqeyi hər kəsə məlum idi. Xalqımızın iradəsindən kənar bir addımın belə atılmayacağı daim ən yüksək tribunalardan bəyan edilirdi. Beynəlxalq dəstəyə gəldikdə isə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni işğalçılarının bu ərazilərdən qeyd-şərtsiz çıxarılması öz əksini tapmışdı. Ulu öndər Heydər Əliyev daim bu inamı ifadə edirdi ki, Dağlıq Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun.

Bu tezis də daim önə çəkilirdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordunun olması vacibdir. Azərbaycanın ordu quruculuğu sahəsində atdığı addımların göstəricisi 2020-ci ilin tariximizə Zəfər ili kimi yazılmasıdır.



### Qələbələr xronikası: 2003-2021

2003-cü il oktyabrın 1-də ulu öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərək bildirmişdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

17 il əvvəl Azərbaycan xalqının böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev andiçmə mərasimində "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram" söyləyərək hədəfləri açıqlamış və bildirmişdi ki, bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir: "Bu gün yüksək kürsüdən çıxış edərək mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm".

Arxada qalan hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri, təkmilləşməni, yeniləşməni həyata keçirdiyi siyasətin ana xətti kimi qəbul edən dövlətimizin başçısı İlham Əliyev son 17 ildə möhkəm təməl üzərində Azərbaycana həm siyasi-iqtisadi, həm xarici siyasət, həm də ordu quruculuğu sahəsində möhtəşəm uğurlar qazandırdı, ölkəmizi qüdrətli, sözünün imzası qədər dəyəri olan dövlətə çevirdi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu müddət ərzində gücləndi, beynəlxalq mövqeyini möhkəmləndirdi, 30 ilə yaxın davam edən işğala son qoydu.

Azərbaycan bu illərdə bütün sahələrdə davamlı uğurlara imza atdı. Sabitlik diyarı, iqtisadi möcüzələr ölkəsi kimi tanınan Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəsi ilə dünyanın hərb tarixinə yeni səhifə yazdı. Qalib ölkənin qalib ordusu dünyanın ən güclü orduları sırasında yer aldı. Çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Azərbaycanın şanlı Zəfərini şərtləndirən amillər iqtisadi, siyasi, hərbi güc, ən əsası torpaq, Vətən sevgisi oldu. Prezident İlham Əliyev çevik siyasəti, sistemli və ardıcıl yanaşması, təkmil islahatları ilə Azərbaycanı iqtisadi baxımdan qüdrətli dövlətə çevirdi. Bu illər ərzində regionda bütün irimiqyaslı beynəlxalq layihələr Azərbaycanın fəal iştirakı ilə həyata keçirilib. Ümummilli lider Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi üzərində qurulan siyasət nəticəsində Azərbaycan böyük uğurlara imza atıb. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP-ın rəsmi açılış mərasimləri keçirilib. 2020-ci il dekabrın 31-də TAP layihəsinin icrası başa çatıb. Onu da qeyd edək ki, 2017-ci ildə "Yeni əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadıldı. Qeyd etdiyimiz kimi, iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır. Siyasətində müstəqil olan Azərbaycan bu gün beynəlxalq arenada böyük nüfuz və dəstək qazanmaqda davam edir. Beynəlxalq təşkilatların qərar və qətnamələrində Azərbaycanın mövqeyinə dəstək özünün aydın ifadəsini tapır. Dövlətimizin başçısı İlham Əliyevin böyük siyasi təcrübəsi, diplomatiya elmini dərindən bilməsi ölkəmizin xarici siyasət kursunun uğurla həyata keçirilməsində mühüm rol oynayır. 44 günlük İkinci Qarabağ müharibəsi dövründə dövlətimizin başçısının 30-a yaxın xarici KİV-ə müsahibələri də deyilənlərin təsdiqidir. Cənab İlham Əliyevin hər bir müsahibəsi həqiqətlərimizin, dəyişməz mövqeyimizin təqdimatı, dünyaya ədalət çağırışı idi. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə, suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi, həmçinin ölkələrin daxili işlərinə qarışmamaq kimi prinsiplər əsasında əməkdaşlığa hazır olduğunu praktikada təsdiqləyib. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunun və qüdrətinin əyani göstəricisidir.

2020-ci ilin əvvəllərindən başlayaraq dünyanı ənginə almış COVID-19 infeksiyasına qarşı mübarizədə də ölkə Prezidenti İlham Əliyev liderlik təşəbbüslərini öz üzərinə götürərək adını dünya tarixinə yazdırmağı bacardı. Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşlərinin, BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi Prezident İlham Əliyevin təşəbbüslərinin nəticəsidir. Cənab İlham Əliyev bütün dünyaya bu çağırışı etdi ki, qlobal problemlərə qarşı qlobal mübarizə aparmaq gərəkdir.

Vətən müharibəsində Qələbəmizi şərtləndirən digər amil hərbi güc və Azərbaycan gənclərinin torpaq, Vətən sevgisidir. Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu dəfələrlə düşmənə sübut etmişdir. Ötən ilin 27 sentyabrında Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdən Azərbaycan ərazilərini atəşə tutması dövlətimizin, xalqımızın səbr kasasını doldurdu, Prezident İlham Əliyevin "hücum" əmrini yüksək səviyyədə cavablandıran Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyi unikal əks-hücum əməliyyatları ilə dünyanın hərb tarixinə yeni səhifə yazdı. Bu gün inkişaf etmiş ölkələrin hərbi ekspertləri Azərbaycanın müharibə taktikasını öyrənirlər. Müharibə itkilərsiz olmur. Amma Azərbaycan Ordusu az itki ilə, bir an da belə geri çəkilmədən 44 günü tariximizə Zəfər günləri kimi yazdı. Bu müddətdə 6 şəhər, 5 qəsəbə, 300-ə yaxın yaşayış məntəqəsi işğaldan azad edildi. Noyabrın 8-də Qarabağın ürəyi Şuşamızın işğaldan azad edilməsi düşməni diz çökdürdü. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaq. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi.

Beləliklə, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına verdiyi digər vədlər kimi, bu sözünə də sahib çıxdı, ərazi bütövlüyümüzü təmin etdi, vaxtilə itirilmiş qürurumuzu özümüzə qaytardı, regionda və dünyada yeni reallıqlar yaratdı. Ən əsası cənab İlham Əliyev bu gün qalib ölkənin qalib Prezidenti kimi işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərlər edərək bu torpaqların əsl sahibinin kim olduğunu Ermənistana və ona havadarlıq edən dövlətlərə çatdırır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev adını tarixə Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider, qalib Sərkərdə kimi əbədi olaraq yazdırdı. 44 günlük İkinci Qarabağ müharibəsinin əsl qəhrəmanına çevrildi.

Göründüyü kimi, zaman Ulu Öndərin 2003-cü ildə xalqa müraciətində ifadə etdiyi inamı təsdiqlədi. Dahi şəxsiyyətin şah əsəri olan müasir müstəqil Azərbaycanı daha da gücləndirən möhtərəm Prezidentimiz İlham Əliyev Ümummilli Liderin vəsiyyətini yerinə yetirdi. Dövlətimizin başçısı Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən bildirmişdir: "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".

### Heydər Əliyev Fondu Heydər Əliyev irsinin fəal təbliğatçısıdır

Heydər Əliyev irsinin təbliği məqsədilə 2004-cü ildə yaradılan Heydər Əliyev Fondu ötən dövr ərzində bu missiyasını uğurla yerinə yetirməklə yanaşı, müxtəlif sahələrin inkişafına xidmət edən layihələri ilə Azərbaycanın davamlı inkişafına dəstək olub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas istiqamətlərindən biri sosial layihələrin uğurlu icrası, Azərbaycan həqiqətlərinin təbliğinə böyük töhfələr verməkdir. Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun xidmətləri misilsizdir. Bununla bağlı faktları özündə əks etdirən kitablar nəşr olunub, müxtəlif dillərə tərcümə etdirilərək ayrı-ayrı ölkələrdə təşkil olunan tədbirlərdə beynəlxalq ictimaiyyətə çatdırılıb. Təbii ki, hər bir addım işğalçı Ermənistanla informasiya müharibəsində qələbəmizə böyük töhfədir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası da öz müsbət nəticələrini verməkdədir. Bugünümüzün əsas çağırışı XX əsrin ən dəhşətli faciəsi olan Xocalı hadisələrini soyqırımı kimi tanıtmaq, dünya ictimaiyyətinin ermənilərin əsl simasını görməsi ilə yanaşı, ermənilərin törətdikləri dəhşətli qətliamı düzgün dəyərləndirməsidir.

Təbii ki, bu gün Dağlıq Qarabağ münaqişəsinin tarixə qovuşması, işğaldan azad edilmiş torpaqlarımızda gündən-günə vüsət alan quruculuq və bərpa işləri Heydər Əliyev siyasətinin təntənəsidir. Bu proseslərin davamlı olması üçün Heydər Əliyev irsini daha dərindən öyrənməli, indiki və gələcək nəsillərə çatdırmalı, cənab İlham Əliyevin qeyd etdiyi kimi, hər kəs bilməlidir ki, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir.

Qeyd edilənlərin fonunda bu ümumiləşdirməni apara bilərik ki, ulu öndər Heydər Əliyev siyasətinin uğurlarını bir yazıda tam əhatə etmək qeyri-mümkündür. Bu fikir əbəs yerə söylənilmir ki, Azərbaycan deyəndə Heydər Əliyev, Heydər Əliyev deyəndə Azərbaycan göz önünə gəlir. Ulu Öndərin Azərbaycanın müstəqillik tarixində qoyduğu izlər, gördüyü işlər, ölkəmizin ən yüksək zirvələri fəth etməsi üçün yaratdığı möhkəm təməl bundan sonra da neçə-neçə tədqiqat işlərinin mövzusu olacaq. Zaman bizləri müstəqilliyimizin ilk illərindən uzaqlaşdırdıqca həmin dövrün reallıqlarını, bugünkü uğurlarımızda rolunu daha aydın görürük. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyev hər bir insanın qəlbində özünə bir əbədi abidə ucaldıb. O abidənin adı müstəqil Azərbaycan dövlətidir. Zəfərin mübarək, Azərbaycan!

# Heydər Əliyev - Müstəqil Azərbaycan dövlətinin qurucusu və yaradıcısı

**Milli müstəqillik bəşər tarixi boyu xalqların, millətlərin ən çox arzusunda olduqları siyasi, hüquqi və mənəvi tələbatları arasında əsas nemət olub. Çünki müstəqil olmayan bir xalq və millət daima var ola bilməz. Milli müstəqilliyini əldən vermiş millətlər zaman-zaman başqa xalqların və millətlərin içində assimilyasiyaya uğrayaraq tarixində arxivlərində qalırlar. Hər xalqın, millətin milli və dövlət müstəqilliyinin əldə edilməsində mühüm tarixi missiyaya malik olan dahi şəxsiyyətləri var. Öz xalqlarına milli müstəqillik nemətini daddıra bilən həmin dahilər heç zaman unudulmur. Belə ki, dünya və bəşər tarixində Azərbaycan adlı coğrafi məkanın milli müstəqil dövlət institutu halına gətirilməsi, milli müstəqilliyimizin 70 ildən sonra yenidən bərpası dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevə nəsib oldu.**

Bəli, bu gün birmənalı şəkildə demək olar ki, Heydər Əliyev bəşəriyyət tarixində mənsub olduğu xalqa və millətə milli dövlət müstəqilliyini yenidən qazandıra bilən xilaskarlıq fenomenidir. Azərbaycanın milli dövlət müstəqilliyinin yenidən bərpa olunması missiyasının Heydər Əliyev fenomeninə qismət olması əslində heç də təsadüfi deyildi. Çünki məhz ulu öndərin anadan olduğu illər artıq Azərbaycan Xalq Cümhuriyyəti 23 ay mövcud olduqdan sonra süquta uğradığı zamanlar idi. Heydər Əliyev hələ 1940-cı illərdən başlayaraq Sovet Azərbaycanın dövlət təhlükəsizlik orqanlarında çalışmağa başladığı zamanlarda özünün iti zəkası, güclü məntiqi, tarixi hadisələri düzgün analiz və təhlil etməsi nəticəsində başa düşürdü ki, zor gücü ilə, xalqları və millətləri istismar etməklə, repressiya maşınından keçirtməklə qurulmuş sovet rejiminin çox yaşaması mümkün olmayacaq.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr bütövlükdə xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalqın təbii konstitusion hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş kimi dərk etməsi kimi iftixar doğuran şanlı epoxanı əhatə edir. Ümummilli liderin Azərbaycan qarşısındakı əvəzsiz tarixi xidmətlərinin ən qabarıq siyasi təzahürü isə onun dayanıqlı milli dövlət qurması, onu möhkəmləndirməsidir.

### Azərbaycanın 14 iyuldan başlayan inkişaf və rifah yolu

SSRİ-nin tərkibində olan Azərbaycan 1969-cu ilədək ciddi tənəzzül meyilləri ilə qarşı-qarşıya idi. Bu tənəzzülün əsasında ayrı-ayrı sahə və sektorlarda idarəetmənin düzgün təşkil edilməməsi, o cümlədən mövcud potensialdan səmərəli istifadə edilməməsi kimi səbəblər dururdu. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilərək respublikanın rəhbəri olmasından sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin edən strateji əsas oldu. Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi, o dövrdən başlayan yüksəliş strategiyasının böyük zaman kəsiyini əhatə edən dövlətçilik konsepsiyasını yerinə yetirdiyini qətiyyətlə sübut edir.

Ümummilli liderimiz Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən bir öndər olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət Onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib.

Qısa müddətdə Azərbaycan İttifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşdı, maşınqayırma, metallurgiya və digər sahələrdə də əhəmiyyətli irəliləyişlər qeydə alındı. Həyata keçirilən institusional islahatlar sayəsində kənd təsərrüfatı, təhsil və səhiyyə sektorlarında, eləcə də neft sənayesində inkişaf tempi əldə edildi. Həmçinin milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Ulu öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində respublikaya rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahatlar və məqsədyönlü işlər sayəsində Azərbaycan sürətlə inkişafa nail oldu.



Bununla yanaşı, 1978-ci ildə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bundan başqa, "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Siyasi-ideoloji müstəvidə görülən bütün bu işlər milli inkişaf və həmrəyliyimizin təmin olunması baxımından tarixi əhəmiyyətə malik addımlar oldu. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Ümummilli lider Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və SSRİ-nin rəhbərlərindən biri oldu. Ümummilli liderimiz bu dövrdə də Azərbaycan xalqı və dövlətinin mənafeyindən irəli gələn əhəmiyyətli addımlar atdı, misilsiz xidmətlər göstərdi. Ulu öndər Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verdi.

Bir sözlə, Ulu öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəmizə rəhbərlik etdiyi dönəm respublikamızın tərəqqi dövrü kimi yadda qaldı, inkişaf göstəriciləri ilə tarixə daxil oldu.

### Ümummilli lider Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır

Yeni Azərbaycan Partiyasının yaradılması və milli inkişafa xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfəsini verməsi də Ulu öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindəndir. 91 nəfər ziyalının 1992-ci il oktyabrın 16-da SƏS qəzetində Ulu Öndər Heydər Əliyevə müraciəti və Ümummilli lider Heydər Əliyevin ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubu çap olundu. Ulu Öndər həmin cavabda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verməsi Azərbaycanın siyasi tarixində dönüş nöqtələrindən birini təşkil edir. Daha dəqiq desək, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Yeni Azərbaycan Partiyası təşkilatlanaraq öz fəaliyyətini davam etdirdi və 1993-cü ildə xalqın dəstəyi ilə hakimiyyətə gəldi.

### 1993-cü il 15 iyun - xalqımızın nicat yolunun başlanğıcı

Hər bir xalqın taleyində mühüm əhəmiyyət kəsb edən elə məqamlar var ki, həmin günlərdə onun gələcək müqəddəratını müəyyən edən mühüm başlanğıcların əsası qoyulmuşdur. Azərbaycan xalqının tarixində belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun Milli Qurtuluş Gününü hər il yüksək əhvali-ruhiyyə ilə qeyd edir. Bu elə bir tarixi gün idi ki, XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşmişdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yenicə müstəqilliyə qədəm qoymuş dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar xalq qarşısında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Bəli, ən yeni tariximizə Azərbaycanın xilası günü kimi daxil olan 15 iyun 1993-cü il Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı günü kimi milli müstəqil dövlətimizin həyatında, bütövlükdə Azərbaycanın tarixində müstəsna yer tutan günlərdən biridir. Ümummilli liderimizin siyasi hakimiyyətə qayıdışı milli müstəqil dövlətimizin həyatında dönüş nöqtəsi idi. Bu hadisə nəticə etibarilə müstəqilliyimizin əbədi, dönməz olmasında çox mühüm və əhəmiyyətli rol oynadı. Bu qayıdış milli müstəqilliyimizin əbədiliyinin təminatı demək idi. Heydər Əliyev 1993-cü il iyun ayının 15-də hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycanı dağılmaqdan, ölkəmizi iflasdan, iqtisadi tənəzzüldən, xaosdan, özbaşınalıqdan xilas edərək inkişaf yoluna qədəm qoymaq üçün zəmin yaratdı. Azərbaycan Respubliasının Milli Məclisi 15 iyun Milli Qurtuluş Günü ilə bağlı 1997-ci ildə qərar qəbul edib. Bütün bunlar həmin qanunda qeyd edilib.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gələrkən Azərbaycanda total böhran vəziyyəti hökm sürürdü. Cəmiyyətin bütün sahələrində Azərbaycan xalqının maraqlarına uyğun olmayan vəziyyət mövcud idi. Onun hakimiyyətə gəlişindən sonra qısa zaman kəsiyində həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda regionda öz mövqelərini möhkəmləndirdi, sosial, mənəvi, iqtisadi, psixoloji sahələrdə Azərbaycan milllətinin maraqlarına uyğun siyasət həyata keçirdi.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik, çoxvektorlu və rasional xarici siyasət kursu ölkəmizin dostlarının və tərəfdaşlarının sayını artırdı, Azərbaycan nüfuzlu dövlətə çevrildi.

### Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəliş və inkişafa nail olub

Əminliklə söyləmək olar ki, Ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Dövlətimizin başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunur. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib.

Bu gün Azərbaycan özünün hər bir sahədə dinamik və titanik inkişaf dövrünü yaşayır. Çünki cənab Prezident İlham Əliyev Ulu Ödər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir. Əsrlər keçəcək, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək amma Heydər Əliyevin milli müstəqillik, azərbaycançılıq ideyaları heç zaman yox olmayacaq. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev ürəklərdə yaşayacaqdır.

***HƏMİD PƏNAHOV,***
***YAP Qazax rayon təşkilatının sədri***

# Dünya tarixi

# böyük şəxsiyyətlərin tərcümeyi-halıdır

Böyük şəxsiyyətlərin yalnız doğum tarixi olur, onların ölüm tarixləri olmur. Bu şəxsiyyətlər millətin ehtiyaclarından doğulmuş şəxsiyyətlərdir. Bu qəbildən olan insanlar dünyadan getməsi ilə də xalqın gen yaddaşına hopmuş tarixi şəxsiyyətlərdir. Tarixin yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bəşər tarixində liderlərin böyüklüyü bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən onların fəaliyyətinin gələcəyin axarına təsiri, əks-sədaları ilə müəyyənləşir. Dərin fəlsəfəyə əsaslanan, daim zamanın nəbzini tutmağı, hadisələrə müdrik qiymət verməyi, siyasi potensialını çevik dəyərləndirməyi bacaran şəxsiyyətlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, təmsil etdikləri xalqları zamanın sərt fırtınalarından, çətin sınaqlarından üzüağ çıxarır, milli xilaskara çevrilirlər.

Azərbaycanımızın əbədi və sönməz günəşi, mənəvi və ideya atamız, ölkəmizə daim nur saçan, daxili və xarici siyasəti ilə vətənimizə daim uğurlar gətirən, Azərbaycanın haqq-ədalət sözünü bütün dünya dövlətlərinə çatdıran, bəşəriyyətin dahi natiqi, tarixi yaradan şəxsiyyətlərdən biri, Azərbaycan dövlətinin memarı və qurucusu, dostluq, qardaşlıq, birlik, əmin-amanlıq, dövləçilik və sülhün tərəfdarı olan Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin anadan olmasından 98 il ötür. Azərbaycan Xalqı onun taleyində və tarixində Azərbaycan xalqının Ümummilli Lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev Çoxəsirlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Bu yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş, bu dahi şəxsiyyətin Vətən və Xalq qarşısındakı xidmətləri misilsizdir. Axərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Liderimiz Heydər Əliyevin xidmətləridir.





Fəxrəddin Vəliyev,
Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının sədri

Təsadüfi deyil ki, Ulu Öndərimizin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdüdlarından çox-çox kənara çıxıb. Dünya miqyasında ən nüfuzlu dövlət başçıları, politoloqlar tərəfindən dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan və böyük Türk dünyasının dahi oğlu Heydər Əliyev zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutub. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Bəşər tarixində liderlərin böyüklüyü bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən onların fəaliyyətinin gələcəyin axarına təsiri, əks-sədaları ilə müəyyənləşir. Dərin fəlsəfəyə əsaslanan, daim zamanın nəbzini tutmağı, hadisələrə müdrik qiymət verməyi, siyasi potensialını çevik dəyərləndirməyi bacaran şəxsiyyətlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, təmsil etdikləri xalqları zamanın sərt fırtınalarından, çətin sınaqlarından üzüağ çıxarır, milli xilaskara çevrilirlər. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövürlərində vətən və xalq qarşısında misilsiz xidmətləri, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi nümunəsi göstərmişdir. Bir qərinədən də çox zaman kəsiyində Azərbaycana rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu xalqımızın rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb. Xilaskarlıq missiyasının banisi kimi tanınan Heydər əliyev XX əsrin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmişdir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycan ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyev şəxsiyyəti ilə, onun mübariz yolu, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Məhz dahi şəxsiyyət Heydər Əliyevin xalqın təkid və tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. O dövrü bir anlığa xatırlayanda göz önünə, ilk növbədə, ölkədə hökm sürən anarxiya və xaos, hərc-mərclik və dərəbəylik gəlir. Mənəvi, ideya və əqidə atamız Ulu öndər Heydər Əliyevin keçmiş Sovet və respublika rəhbərləri o vaxtkı AXCP-Müsavat hakimiyyəti illərdinə təqib olunarkən o, böyük şəxsiyyəti sevən bir şəxs kimi mən Vəliyev Fəxrəddin Vəli oğlu tarixi yaradan şəxsiyyəti müdafiə edtmək üçün mütəmadi olaraq Gəncə şəhərindən Moskvaya Nazirlər kabinetinə, Azərbaycan səfirliyinə, Naxçıvana, Ulu öndər xalqın və ana bacıların təkid və tələbi ilə Bakıya gəldikdən sonra Bakı şəhərinə öz adımdan və Şəmkirlilər adından çoxlu sayda teleqramalar ünvanlamışam.

Eyni Zamanda Ulu öndər Heydər Əliyev Naxçıvanda yaşayarkən Naxçıvan Muxtar Ali Sovetinin sədri mərhum Afiyəddin Cəlilova, Ulu öndərin həyatının qorunması ilə əlaqədar onlarla xəbərnaməli teleqramalar ünvanlamışam, Ulu öndərin həyatının qorunmasına kömək etsinlər.

1993-cü ilin Vətənimiz üçün ağır olduğu dövrdə isə Sürət Hüseynova rəsmi olaraq teleqaramalar ünvanlamışam ki, sizi xaqlımızın, dövlətimizin xilaskarı Ulu öndər Heydər Əliyev ətrafında birləşməyə çağırıram. Tale mənə qismət etdi ki, o böyük tarixi şəxsiyyətlə real həyatda səkkiz dəfə görüşüm olmuşdur.

Mənim o vaxt ən böyük arzularımdan biri o idi ki, Ulu öndərimiz Azərbaycan Respublikasının Prezidenti olsun, ölkəmizin siyasəti, iqtisadiyyatı, ordusu güclənsin, Azərbaycan möhkəmlənsin, biz faşistlərdən "Qarabağ" torpaqlarımızı azad edək.

Məhz Ulu Öndərin tarixi şəxsiyyət kimi meydana çıxması Azərbaycanda yeni günəşin doğmasına, ölkəmizin parlaq gələcəyinin bərqərar olmasına təkan verdi.

Azərbaycanın inkişaf yolunu müəyyən edən Heydər Əliyevin səyləri nəticəsində ölkəmizin ictimai-siyasi, sosila-iqtisadi, elmi-mədəni həyatında ciddi dönüş mərhələsinin başlanğıcı qoyuldu. Dövlətin əsası olan suverenlik, dövlətçilik, ədalət, demokratiya, milli yüksəliş, dünyəvi dövlət və liberal iqtisadiyyat kimi ümimbəşəri dəyərlərin sintezini təmin edən milli ideologiya formalaşdırıldı. Azərbaycanlıları dünyaya sivil dəyərlərin daşıyıcısı kimi tanıdan, dünya Azərbaycanlılarını vətənə bağlayan azərbaycançılıq fəlsəfəsinin əsasları yarandı. Dünya xəritəsində suveren və müstəqil Azərbaycan adlı tarixi həqiqət ünvanı hər kəsə bəlli oldu. Heydər əliyev sübut etdi ki, siyasət naşıların zənn etdiyi kimi asan məsələ deyildir. Həttə ən keşməkeşli zamanlarda belə, Azərbaycan xalqının müstəqil olmaq hüququnu təmin edə bilmək böyük sənətdir.

Fransanın "Kuryer İnternasional" jurnalının 2003-cü ilin may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adler Ulu Öndər Heydər Əliyevə həsr etdiyi məqaləsində yazırdı: "Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həmdə başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, bunların hamısına mətanətlə sinə gərmiş və onun mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq daha yüksəklərə qalxmışdır".

Bu gün də Heydər Əliyevin müəyyən etdiyi yol davam etdirilir. Azərbaycan inkişaf edir, ən uca zirvələrə qalxır, beynəlxalq aləmdə öz nüfuzunu daha da gücləndirir. İndi Heydər Əliyev ideyaları Azərbaycan dövlətinin strateji inkişaf xəttinin ideoloji əsaslarını təşkil edir.

Əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü,öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitməz-tükənməz enerjisi xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır.

1993-cü ilin yayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı təhlükəli vəziyyətdən çıxarmağa nail oldu. İlk növbədə, hakimiyyət vakuumu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış desttruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi. Vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Ardı Səh. 13

# Dünya tarixi

# böyük şəxsiyyətlərin tərcümeyi-halıdır

Əvvəli Səh. 12

Aərbaycan yalnız Heydər əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başlamışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırılmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Heydər Əliyev xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Ulu Öndər Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər əliyevin xarici siyasətinin əsasını sülh beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Dahi Öndər Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənefelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur.

Ulu Öndər Heydər Əliyevin daxili siyasəti hüquqi dövlət quruculuğuna, Azərbaycanın hər bir vətəndaşının azad, sərbəst yaşamaq hüquqlarının təmin edilməsinə, xalqın həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdir. Bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi bu siyasətin prioritetləri idi.

Ulu Öndər Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Azərbaycan xalqının milli lideri, müdrik rəhbər və dahi şəxsiyyətin əziz və işıqlı xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Heydər Əliyev yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının milli lideri, zəmanəmizin böyük siyasi xadimidir. Ulu Öndər Heydər Əliyev hər zaman türklərin qəlbində yaşayacaq əfsanədir. Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyət kimi şöhrət qazanmışdır. Məhz ona görədir ki, ictimai rəydə Heydər Əliyev Türk dünyasının qüdrətli bir insanı, bütün türk dünyasında Atatürk kimi özünəməxsus yeri olan böyük rəhbər kimi ölməzlik qazanmışdır və ümummilli liderə olan sevgi daha da artmışdır.

Ulu Öndər Heydər Əliyev amili Azərbaycanda həyati əhəmiyyətə malik bütün dəyişikliklərdə mühüm və həlledici rol oynamışdır. Məmləkətimizdə gedən prosesləri diqqətindən qoymayaraq, parçalanma, qarşıdurma təhlükəsinin labüdlüyü anında xalqın, Vətənin imdadına yetişən Ulu Öndər dövlətçilik təcrübəsinin bütün variantlarından istifadə etməyə məcbur olmuşdur. Zəkasının ziyası ilə məmləkətimizi bürümüş zülməti yox edərək, aydınlığa çıxarmışdır. Ən əsası isə odur ki, Azərbaycanın müstəqillik yolu ilə inamla addımlaması, uğurlarla zənginləşməsi Heydər Əliyevin şəxsiyyət bütövlüyünün, əqidəcə saflığının nəticəsi idi.

Azərbaycan taleyüklü problemlərinin həllində, müqəddəs milli vəzifələrin uğurla həyata keçirilməsində, beynəlxalq ictimai rəydə, Vətənimizin daha böyük uğurlar qazanmasında xalqımızın böyük oğlu Heydər Əliyevin misilsiz xidmətləri təsdiqlənmiş və qəbul edilmişdir. İnamla demək olar ki, Heydər Əliyevin həyat və idarəetmə salnaməsi, siyasi peşəkarlığı və yenilməz iradəsi məhz bu vəzifələrin yerinə yetirilməsində başlıca təminat olmuşdur. Heç kəs yaddan çıxarmamalıdır ki, Azərbaycanın bölüşdürülməsi və daxili toqquşmalar, vətəndaş qarşıdurması və etnik toqquşmalar içərisində boğulmasını nəzərdə tutan məkrli planlar məhz Heydər Əliyev fonameni sayəsində aradan qalxmışdır.

Ulu Öndər Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gerçəkləşdirdiyi planlar artıq bugünkü Azərbaycan reallığına çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Heydər Əliyev zəngin tarixə malik bir xalqın özünü təsdiqi üçün zəruri olan milli-mədəni məkanda yaşamaq imkanını reallaşdırdı. Nəticədə milli yiyəlik hissinə sahib olan, dövlətçilik təfəkkürünə yiyələnən, ölkənin bu günü və sabahı üçün məsuliyyət hissi ilə yaşayan azərbaycanlı vətəndaşın obrazı, dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi dövlət fəaliyyətinin mühüm istiqamətlərindən biri olmuşdur.

XX əsrdən bəhs edəndə həm də onu üç böyük ideyanın reallaşdığı, gələn nəsillərə miras qalan ideyalar əsri kimi səciyyələndirilir. Bunlar suverenlik, demokratiya və siyasi inkişaf modelləri ideyalarıdır.

Dahi Öndər Heydər Əliyev ən qısa zaman kəsiyində yüzilliyin ideyaları sayılan bu üç irsi həyata keçirməyə, suveren, demokratik Azərbaycan dövləti yaratmağa, onun özünə məxsus siyasi inkişaf modelini müəyyənləşdirməyə qadir olmuşdur. O, sübut etmişdir ki, heç bir ideya cəmiyyətə kənardan diktə və göstərişlə qəbul etdirilə bilməz. Cəmiyyətin öz içərisində ideyanı duyan, konkret tarixi spesifikaya uyğun tətbiq edən, yeni ideyaları milyonlara çatdıra bilən siyasi lider hər şeyə qadirdir.

Dahi şəxsiyyətin xalqımız, vətənimiz qarşısında ən böyük və müqəddəs borcu onun məmləkətimizin nailiyyətlərini gələcəkdə yaşatmaq və daha da təkmilləşdirmək iqtidarında olan layiqli, bir varisi İlham Əliyevi yetişdirməsidir. Belə ki, İlham Əliyev türk dünyasının ən qüdrətli sərkərdəsinin, Heydər Əliyev kimi azman siyasi liderin, qüdrətli zəka sahibinin layiqli, siyasi kürəsində bərkimiş, yetkin dövlət başçısı olduğunu məsuliyyətli fəaliyyətində təsdiqləmişdir. Əgər indi Ulu Öndərin siyasi varisi, layiqli davamçısı İlham Əliyev bütün varlığı ilə müstəqil Azərbaycanımızın siyasi, iqtisadi və mədəni inkişafı istiqamətində həlledici əhəmiyyətə malik işlər görürsə, deməli, Heydər Əliyev ideyalarının həyata keçirilməsi başlıca vəzifə kimi öz aktuallığını saxlayır və xalq da öz Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasəti dəstəkləyir. Artıq bu bir reallıqdır ki, Azərbaycan Ümummilli Liderimizin müəyyən etdiyi strateji və alternativi olmayan siyasi xətt ilə inamla irəliləyir, dövlətimiz gənc və dərin zəkaya malik liderlə daha sürətlə inkişaf edir. Azərbaycan getdikcə qüdrətli və dayanıqlı ölkəyə çevrilməklə dünya miqyasında öz mövqeyini və yerini möhkəmləndirir. Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: "Mənim məqsədim budur ki, Azərbaycan xalqı daha yaxşı yaşasın, əmin-amanlıq olsun, inkişaf olsun. Ölkəmiz daha da inkişaf etsin, güclənsin və Azərbaycan dünyada daha da möhkəm bir dövlətə çevrilsin".

Artıq fəxrlə deyə bilərik ki, Azərbaycan möhkəm və qüdrətli dövlətə çevrilib və bu böyük şəxsiyyətlərin reallaşdırdıqları inkişaf konsepsiyası sayəsində əldə olunan uğurlar ölkəmizin nurlu sabahının təminatçısıdır.

Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin davamçısı olan Prezident İlham Əliyev hazırda Azərbaycanı müvəffəqiyyətlə siyasi və iqtisadi modernləşməyə doğru aparır. İqtisadiyyatın liberallaşdırılması, ölkənin geosiyasi və geoiqtisadi çəkisinin artması, vətəndaş ilə dövlət arasında vahid birliyin, ahəngdarlığın bərqərar olması Azərbaycanı yüksələn xətlə inkişafa aparır. 2003-cü ilədək əldə edilmiş sabitlik və inkişaf son illər ərzində milli büdcənin həcmini 10 dəfədən çox, o cümlədən, müdafiə büdcəsini bir neçə dəfə, adambaşına düşən gəliri inkişafda olan ölkələrin səviyyəsinə qaldırmağa imkan vermişdir. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyanın aparıcı dövlətləri sırasında yer almışdır. Son illər ərzində Azərbaycan rəqabət indeksi üzrə dünyanın 60 ölkəsi içərisində, postsosalist məkanında isə ilk yerlərdə təmsil olunmuşdur. Adambaşına düşən birbaşa xarici investisiyanın həcminə görə Azərbaycan regionda lider, dünyada isə ilk onluqdadır. Azərbaycan dünyanın ən islahatçı ölkəsidir. Şəhər və kəndlərimiz günbəgün dəyişir, regionlarımız müasirləşir, informasiya-kommunikasiya vasitələrinin səmərəli inkişafı sayəsində ölkəmiz mühüm intellektual mərkəzə çevrilir. Bunların hamısı bir daha ölkəmizin sürətli inkişafının və moderinləşməsinin bariz numunəsidir. Əlbəttə ki, bu naliyyətlərin əldə olunmasında müqəddəs Tanrımızın xalqımıza xoşbəxtlik rəmzi olaraq bəxş etdiyi gənc və uzaqgörən liderimiz İlham Əliyevin fəaliyyəti danılmaz bir həqiqətdir. Dahi şəxsiyyətin siyasi kursunu davam etdirən cənab İlham Əliyev böyük əzmkarlıq və mətanət göstərməklə Azərbaycanımızı qət olunması çətin sayılan zirvələrə ucaldır, dövlətçiliyimizi və tarixi müstəqilliyimizi daha da möhkəmləndirir.

"Əmin ola bilərsiniz ki, mən Heydər Əliyevin başladığı bütün işləri axıra çatdıracağam" - söyləyən Prezident İlham Əliyev Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi Liderdir. Mənəvi, ideya atamız, Ulu öndərimiz Heydər Əliyevin ailə və idarəetmə məktəbinin, türk dünyasının yetirməsi olan, zamanın özündən doğulan, dövrün diqtə etdiyi ideyalar müəllifi, yenilikçi, yeni əsrin yeni lideri, hər xalqın öz dilində danışan, dünyanın böyük dövlətləri və məclisləri tərəfindən qəbul edilən, müəllimlər müəllimi, birləşdirici lider, xalq məhəbbəti, millət sevgisiqazanmış Möhtərəm Prezidentimiz, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev, Ulu öndərimizin layiqli davamçısı kimi, bütün sahələrdə, eyni zamanda xarici siyasətdə, böyük uğurlar qazanmaqla, ölkəmizi yarım əsir irəli aparmışdır. Xüsusilə apardığı daxili və xarici siyasət nəticəsində xalqımızın, dünya Azərbaycanlılarının ürəkparası olan "Qarabağ" torpaqlarını düşmən faşistlərindən alaraq Azərbaycana birləşdirmişdir. Bu qələbə tarix boyu, son iki yüz ildəfaşistlərin xalqımıza etdiyi zülümə qarşı böyük qələbə olmuşdur. 44 günlük Vətən müharibəsində faşistlərin iki yüz illik məğlubedilməzlik mifini darmadağın etdi. Təbii ki, biz inandıq ki, müharibə dövründə qəti qələbə qazanacağıq.

Vətən müharibəsində qazanılan tarixi qələbə Azərbaycan xalqının əzmini, qətiyyətini, mübarizliyini, doğma torpaqları uğrunda hər cür fədakarlığa və qəhrəmanlığa hazır olduğunu göstərdi. On minlərlə gənc vətənpərvərin Vətən torpaqları uğrunda vuruşmaq üçün Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinə müraciət etməsi, cəbhə xəttində əsgər və zabitlərimizin göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq nümunələri hesab olunmalıdır. Etiraf edilməlidir ki, Xalqın və Ordunun Prezidentə və Ali Baş Komandana dərin inamı Vətən müharibəsinin tarixi qələbə ilə başa çatmasında mühüm rol oynamışdır. Güclü Ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, Ordu ilə xalqın vəhdətinin təmin edilməsi rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin kökündə dayanan həqiqətlərdir.

Döyüş meydanında qazanılan hər bir tarixi qələbənin əsasında lider amili dayanır. Hamılıqla etiraf etməliyik gerçəklik ondan ibarətdir ki, Ümummilli Lider, müdrik dövlət başçısı Heydər Əliyevin siyasi varisi kimi zəngin təcrübəsi və yüksək şəxsi keyfiyyətləri, Azərbaycan xalqı arasında və dünyada böyük nüfuza malik, doğma Qarabağ uğrunda savaşda uğurlarımızın əsas şərti olmuşdur. Azərbaycanın üçrəngli bayrağının tezliklə işğal olunmuş torpaqlarımızda, Qarabağda dalağanacağı barədə verdiyi vədləri şərəflə yerinə yetirməyi Ulu Öndərimizin və Azərbaycan xalqının Prezident, Ali Baş Komandan cənab İlham Əliyevə olan böyük etimadının nə qədər dərin köklərə malik olmasından xəbər verir.

Müqəddəs torpaqlarımız uğrunda Vətən müharibəsində qazandığımız şanlı qələbənin müəllifi də, Ali Baş Komandanımızdır. Ali Baş Komandan kimi Azərbaycanın yeni tarixini yazdı.

Tarix Ali Baş Komandanın adını öz şərəf səhifəsinə qızıl hərflərlə həkk edəcəkdir.

TƏRS BAXIŞ + FOTO

# Cəbhəçi funksioner Əli Kərimlini ifşa etdi

*AXCP NTK sədri Aydın Əliyev:*
*"Əli Kərimli mənə dedi ki, sən bitmisən"*

**AXCP sədri Əli Kərimlinin partiyası daxilində diktarura rejimi və avtoritar idarəçilik sistemi qurması faktı ilk hadisə deyil. Bu günə qədər Əli Kərimlinin məhz onun şəxsi mənfəətlərini güddüyünə, kirli əməllərini ifşa etdiklərinə görə ittiham edən şəxsləri partiyadan müxtəlif yollarla uzaqlaşdırması halları kifayət qədərdir. Maraqlıdır ki, belə məsələlərdə onun sosial şəbəkələrdə yer almış zombi-trol dəstələri də cəlb olunur və hədəfə alınan şəxslər söyüş, təhqir atəşinə tutulmağa başlayırlar.**



Bununla da özünə qarşı çıxanlara həm də mənəvi terror yaşadan AXCP sədri əslində necə "adam" olduğunu bir daha sübuta yetirmiş olur. Onun söyüş, təhqir və mənəvi terorr hədəfinə gələnlərdən biri də partiyanın Nəzarət-Təftiş Komissiyasının (NTK) sədri Aydın Əliyevdir. SİA-ya daxil olan məlumata görə, onun artıq bir neçə ildir ki, partiya rəhbəri Əli Kərimli ilə çəkişməsi davam edir. Aydın Əliyev onu heç bir fakt, səbəb olmadan vəzifəsindən azad edən Əli Kərimlini məhkəməyə verərək, heç bir günahının olmadığını da isbat edib. Amma buna rəğmən, Kərimli hazırda da adıçəkilən funksionerə hədələr yağdırırmaqdadır.





Qeyd edək ki, AXCP-nin NTK sədri bu il martın 4-də partiya sıralarına, qurumdakı vəzifəsinə bərpa olunsa da, Əli Kərimli və onun bəlli çevrəsi Aydın Əliyevin fəaliyyətinə imkan vermir, hər vəchlə onu yenidən AXCP-dən çıxarmaq üçün çoxsaylı vasitələrə əl atır, hətta şərlər, böhtanlar yağdırır.

### NTK sədri: "Məndə səs yazıları var"

Aydın Əliyev baş verənlərlə bağlı mediaya danışıb və deyib: "Əli Kərimliyə yaxınlaşdım, mənimlə görüşmək istəmədi və mənə dedi ki, sən bitmisən. Maşınına əyləşib getdi..."

AXCP-nin NTK sədri həmçinin onda AXCP sədri Əli Kərimlinin səs yazısının olduğunu da bildirib və bu səs yazısı vasitəsi ilə partiya sədrini ifşa edəcəyini vurğulayıb: "... Məndə səs yazısı var. Orada Kərimlinin tələm-tələsik Rəyasət Heyətinin üzvü İradə Nərimana partiyadan çıxarılmağımla əlaqədar çıxarış hazırlamağımı tapşırdığı məlum olur. İradə xanım bildirir ki, axı protokol yoxdur, məzmunu olsun. Kərimli deyir ki, bizə protokol lazım deyil, protokoldan çıxarış lazımdır...Demokratiya və insan haqlarından danışan Əli Kərimlinin nə düşündüklərini ortaya qoydum. Bununla cəmiyyətə, gəncliyə hər şeyi göstərdim...".

Beləliklə, bu da Əli Kərimlini danılmaz faktlar qarşısında qoyan təməlli ifşalardan biridir və maraqlıdır ki, AXCP sədri bugünə qədər ona qarşı irəli sürülmüş, isbatlanmış ittihamlara hələ də cavab vermir. Çünki buna cürəti çatmır, ya da susmaq razılıq əlamətidir və əgər susursa, ittihamlarla razılaşırsa, onda istefası məsələsini sürətləndirməlidir - növbəti və daha ağır ittihamların da onu əhatəyə alaraq məhv edilməsinə qədər.

***R. Nurəddinoğlu***

# "Bura sizə Armavir deyil" bəyanatına dəqiq cavab var: "Bura sizə Ermənistan deyil!"

**ATƏT-in daimi nümayəndələri olan 11 ölkə İkinci dünya müharibəsində əldə edilən qələbənin 76-cı ildönümü ilə bağlı bəyanat yayıb və bəyanat yayan ölkələrin sırasında Ermənistanın da adı var. Maraqlıdır ki, İrəvanda faşist Qaregin Njdeyə abidə ucaldan, ölkənin bir sıra küçələrinə bu kollaborantın adını qoyan Ermənistan bəyanata qoşularkən bu vasitə ilə "öz ayağına güllə vurduğunu" sanmayıbmı?**



SİA xəbər verir ki, mövzu ilə bağlı "Caliber" analitik informasiya resursuna müsahibə verən Rusiyanın Plexanov adına iqtisad universitetinin politologiya və sosiologiya kafedrasının dosenti, "Rusiya zabitləri" ekspertlər şurasının üzvü,hərbi analitik və siyasi şərhçi Aleksandr Perenciyevə görə, SSRİ-nin düşmənləri olmuş faşist nökərlərinin qəhrəmanlaşdırılması hətta Rusiyada da baş verir və bütün postsovet məkanında faşizmə qarşı müqavimət göstərmək lazımdır.

### Politoloq: "Bu kimi məsələlərdə Azərbaycanı istisna etmək olar"

"Lakin bizim Ukraynada, Ermənistanda, Baltikyanı ölkələrində, hətta Rusiyada gördüklərimiz əksini göstərir. Yeri gəlmişkən, bu kimi məsələlərdə Azərbaycanı istisna etmək olar", deyən politoloq hesab edir ki, bu yalnız siyasi deyil, həm də mədəniyyət problemidir.

Ancaq buna baxmayaraq, Rusiyada faşist əlaltılarına abidələrin ucalmadığını deyən Perenciyev onu da etiraf edib ki, buna rəğmən, ölkədə bəzi hallarda faşizi təbliğ edən hallarla rastlaşmaq mümkündür. Məsələn, rus və fin hərbi, dövlət xadimi Karl Mannerqeymə Sankt-Peterburqda xatirə lövhəsi vurulub. O, əvvəllcə Rusiyanın İmperiya ordusu sıralarında xidmət aparıb, ancaq sonra Finlyandiya ordusunun ali baş komandanı olub və Sovet İttifaqına qarşı müharibə aparıb. Sonradan onun xatirə lövhəsi götürülsə də, bu hal baş verib.

Ermənistana və digər postsovet ölkələrinə gəlincəsə politoloq qeyd edib ki, problemlərdən biri də onlar nə qədər ideal etsələr belə, həmin ölkələrin qədim tarixə malik olmamalarındadır. "Onlar qəhrəmanlar axtarırlar və onları Sovet İttifaqına qarşı döyüşən şəxslər arasından tapırlar. Ancaq bu ideoloji dalandır", Perenciyev bildirib.

### Hərbi analitik: "Böyük hesabla onu nəinki Qarabağda, həm də Ermənistanda demontaj etmək lazımdır"

Qaregin Njdeyə Azərbaycanın Qarabağ bölgəsindəki abidəsi məsələninə toxunan rusiyalı hərbi analitik hesab edir ki, bu çox xoş olmayan bir situasiyadır, axı heykəli Azərbaycanın torpağında ucaldıblar: "Problem həqiqətən də genişdir və mən hesab edirəm ki, mədəniyyət sferasında yeni üçtərəfli razılaşma imzalanmalıdır ki, bu da hansı heykəllərin qalmasını, hansılarının isə yığışdırılmasını, hansılarının isə Azərbaycana geriyə qaytarılmasını müəyyən etməlidir, axı bir çox tarixi və mədəniyyət abidələri hətta xalçalar da daxil Azərbaycanın qərb hissəsindən Ermənistana çıxarılmışdı.Amma Qaregin Njdeyə qoyulan abidə dəqiq olaraq yığışdırılmalıdır. Böyük hesabla onu nəinki Qarabağda, həm də Ermənistanda demontaj etmək lazımdır".

Perenciyev Qarabağdakı erməni millətçilərinə daha sərt və ağır cavabın verilməsinin tərəfdarı olduğunu deyib: "Qarabağdakı erməni millətçilərinin Njdenin abidəsi ətrafında guya "Bura sizə Armavir deyil" tipli bəyanatlarına dəqiq və sadə cavab var: "Bura isə sizə Ermənistan deyl!". Bu ərazi Azərbaycanındır və Azərbaycan qanunlarına riayət etmək lazımdır. Rəsmi Bakı isə hitlerçi kallaborantlara heykəllərin qoyulmasına qarşıdır".

***Rövşən RƏSULOV***



Elçin Bayramlı

# Biz niyə Qələbə qazandıq?

**60 milyon insanın həlakı, onlarla ölkənin, on minlərlə şəhər kəndin dağılması ilə müşayiət olunan II Dünya Müharibəsi illəri bəşəriyyət tarixində ən ağır və dəhşətli dövr oldu. Almaniya və İtaliyada meydana gələn faşizm kabusu nəinki bu ölkələrin özünü, bütün bəşəriyyəti təhlükə altına almışdı.**

Bu müharibənin ən böyük hədəfi də SSRİ oldu. Bəşəriyyəti faşizmdən isə elə Sovet İttifaqı xilas etdi. 1945-ci il mayın 8-i gecəsi Almaniyanın təslim olması haqda kapitulyasiya aktı imzalandı- bu, əslində, Yaponiya ilə haqq-hesabın daha sonra çürüdülməsinə baxmayaraq, bəşəriyyət tarixində ən dəhşətli müharibənin sona çatmasını xəbər verirdi.

Böyük Vətən Müharibəsi illərində Sovet xalqları dünya tarixində misli görünməmiş qəhrəmanlıq göstərdilər. Almaniya işğal etdiyi 6 dövlətin orduları ilə birlikdə SSRİ-yə qəfil hücum etmişdi- müharibələrdən inqilablardan yeni çıxmış, hələ özünə gəlməyə macal tapmamış ölkə və hazırlıqsız yaxalanmış Qızıl Ordu çətin vəziyyətə düşmüşdü.

Düşməndən canlı qüvvə, silah-sursat və hərbi texnika sayına görə 3 dəfə zəif olan Sovet Ordusu bu müharibədə yüksək mənəvi-ideoloji üstünlük, vətənpərvərlik, döyüşkənlik, xalqın birliyi, arxa cəbhənin ağlagəlməz dərəcədə gərgin zəhməti və nəhayət Stalin başqa olmaqla Sovet generalitetinin ağıllı strategiyaları və taktikaları sayəsində qalib gəldi.

Ümumiyyətlə, Sovet xalqının və ordusunun müharibədə qalib gəlməsinin əsl səbəblərini anlamaq üçün Boris Polevoyun "Əsl insan dastanı" əsərini oxumaq da kifayət edər.

Bu qələbədə respublikamızın da əvəzedilməz xidmətləri oldu. Azərbaycan xalqının oğul və qızları həm agır döyüşlərin getdiyi cəbhə bölgələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq nümunələri göstərdilər.

Qısa zamanda respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünü müdafiə dəstəsi təşkil olundu. 1941-1945-ci Azərbaycanın 3,4 milyon əhalisindən 600 mindən çoxu cəbhəyə yollanmışdı ki, onlardan da yarısı döyüşlərdə həlak oldu. Azərbaycan diviziyaları Qafqazdan Berlinəcən mübariz döyüş yolu keçdilər. 130-a yaxın azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Bunlardan Həzi Aslanov (2 dəfə), Adil Quliyev, Ziya Bunyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə və başqalarını göstərmək olar.

Bundan başqa, 30 nəfər Şərəf ordeni ilə təltif olundu. Generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz qəhrəmanlığı ilə xalqımızın şərəfli tarixinə yeni sətirlər yazdılar. Ümumilikdə isə, 170 mindən artıq Azərbaycan əsgər və zabiti SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edildi.

Respublika iqtisadiyyatı cəbhə üçün işləməyə başladı. Az bir vaxtda Bakı Qızıl Ordunun ən mühüm cəbbəxanalarından birinə çevrildi. Müharibə illərində Bakıda cəbhə üçün 130 növ silah və döyüş sursatı da istehsal olunub.

Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni və sənayemizi yanacaqla təmin edirdilər. 1941-1945-ci illərdə Azərbaycandan cəbhəyə yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı, paltar və ərzaqla dolu yük qatarları və gəmilər yollanırdı. 1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın tarixində ən çox- 23,5 millyon ton istehsal olundu ki, bu da SSRİ-də istehsal olunan neftin 70%-dən çoxunu təşkil edirdi.

Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, o cümlədən 22 milyon ton benzin və başqa neft məhsulları vermişdilər. Qətiyyətlə demək olar ki, faşizm üzərində qələbənin qazanmasında Bakı nefti də əsas amillərdən biri oldu. Müharibə illərində neft sənayesi naziri olmuş Nikolay Baybakovun sözləri ilə desək, "faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir".

Lakin Azərbaycan xalqının bu müharibədə əsas xidməti cəbhəyə neft verməklə deyildi. Yüz minlərlə əsgərimizin qəhrəmancasına döyüşməsi, arxa cəbhədə mütəşəkkil və gərgin fəaliyyət əsas rol sayılmalıdır. Qısaca, bu ağır müharibədə qələbə üçün hakimiyyətlə xalqın birliyi, vətən uğrunda mübarizə əzmi və fədakarlığı əsas rol oynadı. Böyük Vətən Müharibəsi Qəhrəmanlarına əbədi eşq olsun.

**9 May bayramınız mübarək!**

# Rus sülhməramlıları faşist Qaregin Njdenin Qarabağdakı abidəsini sökəcək

**“Moska-Bakı” portalında (moscow-baku.com) Anna Nemolyakinanın təqdimatında yayımlanan “Moskva-Bakı” xəbərləri buraxılışında regionumuzda, o cümlədən Qarabağda gedən proseslər haqda maraqlı təhlillər aparılıb. Verilişi mətn və video formatında oxucularımıza təqdim edirik.**

## Qarabağda vəziyyət nəzarət altındadır

Qarabağ ərazisində vəziyyət normallaşıb, kiçik insidentlər rus sülhməramlıları tərəfindən operativ və effektiv şəkildə həll olunur. Rusiya xarici işlər naziri Sergey Lavrov bunu dünən İrəvana iki günlük səfəri zamanı erməni həmkarı Ara Ayvazyanla görüşündə söylədi.

“Dağlıq Qarabağ nizamlanmasında müsbət bir tendensiyanı müşahidə edirik. Ərazidə vəziyyət əhəmiyyətli dərəcədə normallaşdı. Rusiyanın sülhməramlı kontingenti təhlükəsizliyin qarantı kimi çıxış edir”- Lavrov deyib.

Eyni zamanda, Rusiya diplomatiyasının rəhbəri qeyd edib ki, bu mərhələdə Rusiya, Ermənistan və Azərbaycan liderlərinin bölgədəki nəqliyyat və iqtisadi əlaqələrin qarşısını almaq üçün qoyduqları vəzifələr uğurla icra olunur və üçtərəfli işçi qrupu səviyyəsində baş nazir müavinləri bu mövzuda fəal işləyir.

“Bu işin müvəffəqiyyəti, ümumi vəziyyəti normallaşdırmaq üçün lazımi şəraitin yaradılması və münaqişədən sonrakı dövrdə Ermənistanla bölgədəki qonşuları arasında qarşılıqlı konstruktiv əməkdaşlığın qurulması üçün həlledici əhəmiyyət kəsb edəcəkdir”- o deyib.

Lavrov, Moskvanın “bu işin davam etdirilməsində, Bakı ilə İrəvan arasında dialoqun qurulmasını təşviq etməkdə və Cənubi Qafqazın davamlı iqtisadi inkişafını təmin edilməsində” maraqlı olduğunu qeyd etdi.

Eyni zamanda, Rusiya xarici işlər naziri Sergey Lavrov, Dağlıq Qarabağda dinc bir həyat qurmaq üçün, gedən prosesləri siyasiləşdirməməyə çağırıb.

“Prosesi indi siyasiləşdirməyə ehtiyac yoxdur. Olduqca çətindir, amma davam edir, çünki bu bölgəni birləşdirən marşrutlarla əlaqəli, indi regional münasibətlərin birliyi deyilən şeyin təmin edilməsi ilə əlaqəli məsələlər həll olunur. Təmas xətti məsələlərii, sərhədlərin delimitasiya və demarkasiya məsələləri həll olunur. Bunlar bölgənin sərbəst nəfəs alması və insanların dinc bir həyat yaşaması üçün həll edilməsi lazım olan işlərdir” Rusiya diplomatiyasının rəhbəri bildirib.

Lavrov, həmçinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin “ilk növbədə etimad mühitinin yaradılmasına kömək etmək üçün” gələcək fəaliyyətlərinin aktuallığını vurğuladı.

Öz növbəsində, Ermənistan xarici işlər naziri Ara Ayvazyan Lavrovla görüşdən sonra bir tərəfdən, müharibədən sonra bölgədəki nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılmasının Ermənistan üçün faydalarını bildirdi, lakin eyni zamanda erməni diplomatiyası adından bir sıra təxribat xarakterli açıqlamalar verdi.

Xüsusilə Ayvazyan “Dağlıq Qarabağ münaqişəsi həll edilmiş hesab edilməsindən çox uzaqdır, yalnız sülh danışıqları hər kəsin hüquqlarını nəzərə alacaq və Cənubi Qafqaz bölgəsinə sülh və sabitlik gətirəcək hərtərəfli siyasi həll tapa bilər”- dedi. Onun sözlərinə görə, “bu qərar “Artsax xalqının” özlərinin müəyyənləşdirdikləri sərhədlər daxilində Artsaxın statusu qərarına (bu, Qarabağın erməni adıdır) əsaslanmalıdır”.

Əlavə edirik ki, İrəvana səfəri zamanı Rusiya xarici işlər naziri Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyanla bir görüş keçirdi və görüş zamanı Paşinyan “Ermənistanın 9 noyabr 2020 və 11 yanvar 2021 üçtərəfli bəyanatlar ilə əldə edilmiş razılaşmaları həyata keçirmək üçün bütün tədbirləri görməyə davam edəcəyini bildirdi. Həm də tərəflər arasında üçtərəfli formatda konstruktiv dialoqun təmin olunması üçün hər cür səy göstərməyə hazırıq”- Paşinyan dedi. Xatırladaq ki, 10-11 may tarixlərində Sergey Lavrov Azərbaycana səfər edəcək.

## Etibarın itirilməsinin səbəbi

Azərbaycan Xarici İşlər Nazirliyi həbs olunan erməni təxribatçılarla əlaqəli verdikləri bəyanat səbəbiylə Fransa və Kanadaya Bakıya təzyiqləri ilə əlaqədar olaraq Azərbaycan cəmiyyətinə olan inamın itdiyi ehtimalı barədə xəbərdarlıq edib.

Beləliklə, Fransa və Kanadanın Xarici İşlər Nazirlikləri bir tərəfdən 3 erməni hərbçinin Azərbaycan tərəfindən İrəvana köçürülməsini alqışladıqları, eyni zamanda tutulanların hamısının sərbəst buraxılmasını tələb etdikləri açıqlamalar yaydılar.

Xatırladaq ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixində üçtərəfli Atəşkəs Bəyanatı imzalandıqdan sonra Azərbaycan ərazisinə köçürülmüş, hərbi personal və mülki şəxslərə qarşı terror aktları törədən Ermənistan hərbçilərinin Azərbaycan tərəfindən qaytarılmasından söhbət gedir. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bütün hərbi əsirlərin Azərbaycan tərəfindən Ermənistana təhvil verildiyini, üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycana köçürülən eyni erməni hərbçilərinin təxribatçı və terrorist olduğunu bəyan edib.

Bununla əlaqədar olaraq, Azərbaycan Xarici İşlər Nazirliyi bəyan edib: “Hər iki ölkənin xarici işlər nazirliklərinin diqqətinə çatdırırıq ki, Ermənistan tərəfi beynəlxalq humanitar hüququn öhdəliklərini və üçtərəfli bəyanatların üzərinə götürdüyü öhdəliklərini hələ də yerinə yetirmir. Yəqin ki, hər iki ölkədə də Ermənistanın hələ 1991-94-cü illərdə müharibə zamanı itkin düşmüş 4000-ə yaxın azərbaycanlı barədə məlumat verməməsi, azad edilmiş ərazilərdə yerləşdirilmiş mina xəritələrini verməkdən imtina etməsi barədə məlumatlar var”.

Azərbaycan Xarici İşlər Nazirliyi vurğuladı ki, Fransa və Kanadanın xarici işlər nazirlikləri məsələyə birtərəfli deyil, obyektiv yanaşma nümayiş etdirmək istəsələr, Ermənistanı beynəlxalq humanitar hüququn öhdəliklərinə riayət etməyə çağırmalı və bölgədə davamlı sülhü əngəlləyən hərəkətlərini qəbul etməməlidirlər. Əks təqdirdə, bu, hər iki ölkənin Azərbaycan cəmiyyətindəki etibarlılığına ciddi zərbə vura bilər”- dedi.

## Veteranlar nasizmə qarşı

Böyük Vətən Müharibəsi dövründə 3-cü Reyxlə əməkdaşlıq edən faşist əlaltısı Qaregin Njdeyə Xocavənd şəhərində ermənilər tərəfindən qoyulan abidə ilə bağlı qalmaqal yenidən Qələbə Günü ərəfəsində alovlanır.

Bu yaxınlarda rus veteranlar Rusiyanın Xarici İşlər Nazirliyinə və Müdafiə Nazirliyinə Qarabağdakı Njde abidəsinin sökülməsi tələbi ilə müraciət etdilər. Müvafiq tələb, Silahlı Qüvvələrin və hüquq mühafizə orqanlarının əmək veteranları və müharibə veteranlarının Moskvaaltı Dolqoprudnenskaya ictimai təşkilatı tərəfindən nazirliklərə göndərildi.

Veteranların açıqlamasında müharibə zamanı Qaregin Njdenin yaratdığı “Erməni Legionu”nun Polşa və Ukraynada minlərlə mülki şəxsə qarşı törətdiyi cinayətlər, Qərbi Krımda 20 mindən çox mülki şəxsin öldürülməsi qeyd olunur.

Veteranlar müraciətində qeyd etdilər ki, abidənin Rusiya sülhməramlı kontingentinin 9 may Qələbə gününü qeyd edəcəyi ərazidə yerləşməsi Avrasiya məkanını birləşdirən azsaylı dəyərlərdən birinə və Rusiyanın nasizmin təbliğinə qarşı apardığı prinsipial mübarizədəki nüfuzuna bir növ “sarsıdıcı” zərbədir.

Vurğulayaq ki, sözün həqiqi mənasında bir neçə gün sonra rus veteranları Azərbaycandan olan veteranlar tərəfindən dəstəkləndilər. Xocavənddə faşist Qaregin Njdeyə qoyulan abidənin sökülməsi tələbi ilə Rusiya Xarici İşlər naziri Sergey Lavrova da müraciət edildi.

Xatırladaq ki, faşist kollaborasionist Qaregin Njdeyə abidə 2020-ci yanvarın sonunda Azərbaycanın Xocavənd rayonunun hələlik Azərbaycan tərəfinə təhvil verilməyən və Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan hissəsində qoyulub. Dağlıq Qarabağ münaqişəsi tərəfləri arasında sülhün bərqərar olması üçün aparılan intensiv işlərin fonunda abidənin təxribatla qəfil meydana çıxması hələ də həll olunmayan qalmaqala səbəb oldu.

Əlavə edirik ki, bu gün Ermənistandakı KİV-lər Rusiyanın Qarabağdakı sülhməramlı missiyasının komandiri general Rüstəm Muradovun Qaregin Njdenin Xocavənddəki abidəsinin sökülməsi üçün əmr verdiyini yazıb.




## Azərbaycanın mədəni paytaxtı

Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş Şuşa şəhərinin ölkənin mədəniyyət paytaxtı elan edilməsi haqqında sərəncam imzaladı. Sənəddə qeyd olunur ki, Azərbaycan dövləti başçısının sərəncamı Şuşanın tarixi görkəmini bərpa etmək, onu əvvəlki şöhrətinə qaytarmaq və “kabus şəhərciyi”ndən ənənəvi zəngin mədəni həyata keçmək, həmçinin onu beynəlxalq arenada Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi təbliğ etmək məqsədi daşıyır.

Qeyd edək ki, Şuşa 8 noyabr 2020-ci ildə 2-ci Qarabağ müharibəsi zamanı Azərbaycan ordusu tərəfindən işğaldan azad edilmişdir.

Şuşa Qarabağın ürəyi sayılır və azərbaycanlılar üçün ən vacib tarixi, mədəni, siyasi əhəmiyyətə malikdir. Buna “Azərbaycanın incisi”, “Qafqazın konservatoriyası” deyilir. Ölkənin inkişafına mühüm töhfə verən, tarixini müəyyənləşdirən çox sayda siyasi xadim, mədəniyyət xadimi Şuşada anadan olublar. Şuşanın azad edilməsi Azərbaycan xalqı üçün strateji əhəmiyyətə malik idi və əslində müharibənin bütün nəticələrini əvvəlcədən müəyyənləşdirmişdi. Siyasi analitiklərin qeyd etdiyi kimi, Şuşa Qarabağın açarıdır.

Şuşanın azad edilməsi, ilk növbədə, müharibə zamanı Azərbaycan ordusunun ən vacib vəzifəsi idi. Məhz Şuşada Azərbaycanın memarlıq, dini, mədəni irs abidələri- Qarabağ xanının vəziri, şair Vaqifin məqbərəsi, Yuxarı Gövhər ağa məscidi, Saatlı məscidi, Azərbaycan klassik musiqisi Üzeyir Hacıbəyovun ev muzeyi, son Qarabağ xanı, şair Xurşidbanu Natavanın evi, Bülbülün evi və UNESCO-nun mədəni irs abidələri siyahısına düşən bu kimi mədəniyyət və tarix abidələri dağıdılıb.

Bu gün işğaldan azad edilən Şuşada magistral su kəmərinin bir hissəsinin inşasına başlandığı və tezliklə “bir pəncərə” xidmətinin bir qolunun açılacağı məlum oldu.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

9 may


QARABAĞ AZƏRBAYCANDIR!

## Burak Yılmaz İbrahimoviçə çatdı

Liqa 1-in 35-ci turunda "Lens"lə matç "Lill"in futbolçusu Burak Yılmaz üçün əlamətdar olub. Qol.az goal.com-a istinadən xəbər verir ki, türkiyəli hücumçu qarşılaşmada (3:0) dubl edib. Bununla da o, cari mövsümdə vurduğu qolların sayını 15-ə çatdırıb. Beləliklə, Yılmaz Avropanın 5 böyük liqasında çıxış edən 35 və daha çox yaşı olan oyunçular arasında qol sayına görə Zlatan İbrahimoviç çatıb və 2-ci pillədə qərarlaşıb. Bu göstəricidə lider isə 27 qolla Kriştiano Ronaldodur. Qeyd edək ki, Burakın bu mövsüm aktivində 5 qol ötürməsi də var.



## Alimlər beyinlə bağlı yeni eksperiment aparıb, sən demə...

Alimlər əsnəmənin müddəti ilə beyin ölçüsü arasında bir əlaqə aşkar ediblər. Alimlər əsnəmənin beyinin soyudulmasına ehtiyac olduğu üçün, əsnəmənin müddətinin isə beyinin ölçüsünə uyğun olaraq dəyişdiyini aşkar ediblər.



SİA xəbər verir ki, araşdırmanın nəticələrini əks etdirən məqalə "Communications Biology" veb saytında yayımlanıb.

Mütəxəssislər 55 növ məməli və 46 növ quş üzərində təcrübə aparıblar və 1291 əsnəməni araşdırıblar. Filogenetik analizlərin nəticələrinə əsasən, alimlər əsnəmənin müddəti ilə neyronların sayı arasında güclü bir əlaqə tapıblar. Daha böyük bir beyinin termoliz üçün daha yüksək bir tələbə sahib olduğu, istiliyinin ölçüsünün isə qismən neyronların fəaliyyət səbəbiylə təyin olunduğu qənaətinə gəliblər.

Mütəxəssislər, heyvanların bədən istiliyinin yüksək olduğu üçün quşlardan daha uzun əsnədiklərini də qeyd ediblər.

***Elçin***

## Doğumda artım gözlənilirmi?

**Uşaq doğumunda artım gözlənilirdi, lakin Covid-19 əks təsirə səbəb oldu. SİA xəbər verir ki, Amerika mütəxəssisləri bir il əvvəl Covid-19 məhdudiyyətləri yeni tətbiq olunan zaman statistikanın yüksək olmasını və 2021-ci ildə doğum nisbətlərində ciddi bir artım olacağı proqnozlaşdırdı. Lakin statistika əksinin baş verdiyini göstərir.**



Dünya ölkələrinin ilkin statistik məlumatlara görə, koronavirus dönəmində bir çox ölkələrdə doğuş sayı əhəmiyyətli dərəcədə azalıb. Koronavirusun yayıldığı bu dövrdə insanlar işlərini itirirlər və sabah nə baş verəcəyi ilə bağlı narahatlıqları var. Buna görə də yeni körpələr dünyaya gətirməkdə maraqlı deyillər. Yarım milyon amerikalının həyatını itirdiyi 25 əyalətdən alınan məlumatlara və araşdırmalara görə, 2020-ci ildəki doğum nisbətləri ilə müqayisədə 2021-ci ildə kəskin bir azalma olduğu ortaya çıxıb. Dünyada pandemiyadan əvvəl bir azalma var idi, lakin bu nisbət 2020-ci ildə 2019-cu illə müqayisədə daha az idi.

Mütəxəssislər erkən doğuşların sayının ümumiyyətlə, son rəqəmlərə olduqca yaxın olduğunu söyləyirlər.

Covid-19 peyvəndinin də doğumun azalmasında rolu olduğunu deyənlər də var. Pensilvaniya Universitetinin tədqiqatçısı Hans-Peter Kohler bildirib ki, indi doğuşların azalmağa davam edəcəyi ilə bağlı geniş bir konsensus var: "Bunun vacib səbəblərindən biri hamilə qadınların virusdan daha ciddi təsirlənməsidir və hamilə qadınlarda peyvəndlərin istifadəsinin tibbi tövsiyələrə görə çox aşağı olmasıdır. Buna görə bir çox cütlüklər peyvəndləməyə qədər gözləyəcəklərini düşünürlər". Uşaqlar Covid-19 pandemiyasının qurbanları kimi görünməsələr də, pandemiyanın ən böyük qurbanı kimi təhlükə ilə qarşı-qarşıyadırlar. Covid-19-un yayılmasının uşaqların sağlamlığına ciddi təsiri olmasa da, onların psixologiyasına ciddi şəkildə təsir edir. Uşaqların yaşından, cinsindən, əqidəsindən, millətindən asılı olmayaraq, sosial-iqtisadi böhran uşaqların hamısına həm psixoloji, həm də mənəvi sarsıdıcı zərbə vurub. Covid-19 universal bir böhrandır və bu böhran uşaqların halına ciddi təsir edib.

"İnsanların uşaq sahibi olmaq istəməsi psixoloji və ruh halı ilə bağlı məsələdir". Bu məsələ ilə bağlı SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib.

Dünyaya uşaq gətirmək həqiqətən də bu dönəmdə çox çətindir və bundan qorxmaq da təbii haldır: "Hər bir insanın psixologiyası individual olduğuna görə onun ruh halı da hadisələrə psixoloji yanaşmasıda individualdır. Yəni hər kəsdə qorxu olması fikri düzgün deyil. Lakin qorxunun səbəbi bundan qaynaqlanır ki, xəstəlik can alır, hamiləlik zamanı dölə təsir edir, ağır və ya yüngül problemlər yaradır".

"Pandemiya qlobal problemlərin və doğumun azalmasına səbəb olacaq və əhalinin artımına mənfi təsir göstərəcək". Bunu SİA-ya açıqlamasında sosioloq Elçin Bayramlı deyib.

Sosioloq vurğulayıb ki, bu azalma çox keçmədən statistik məlumatlarda özünü büruzə verdi: "Təbii ki, səbəblər aydındır. Ailə quranların və toy mərasimlərinin azalması eyni zamanda, sosial problemlər buna təsir göstərib. Belə bir narahat və çətin dövrdə insanlar uşaq sayını artırmağa o qədər maraqlı deyillər. Pandemiyanın əsas təsirlərindən biri də budur. Mən hesab edirəm ki, bunu hansısa qüvvə dünyada bu prosesi aparırsa onlar əsas məqsədlərinə çatıb. Bəzi şəxslər əhalinin azalması müxtəlif üsullarla təmin etmək üçün bunu heç gizlətmədən açıq şəkildə çıxışlarında kitablarında proqramlarında deyillər. Bildirirlər ki, dünya əhalisi çoxdur, planetdə problemlər yaranır. Ona görə də hümanist yollarla əhalinin azaldılmasının təmin etmək lazımdır. Yəni sonsuzluq yaratmaq ailə insitutunun dağıdılması müxtəlif sosial problemlərlə ailələrdə minumum uşaq sayının olmasına çalışırlar. Bu proses də öz nəticəsini göstərib. Pandemiya gec-tez qurtaracaq və həyat öz axarına qayıdacaq. Çünki təbii balans özünü yenidən tənzimləyəcək. Yəni müvəqqəti azalmaların dünya əhalisi statistikasına təsiri az olacaq. Alimlərin hesablamalarına görə, dünya minimum 50-60 milyard insanın yaşamasını təmin etmək gücündədir. Sadəcə, pandemiya kimi hadisələr hansısa qüvvələrin öz məqsədlərini həyata keçirmək üçün bəhanədir".

***Qönçə Quliyeva***

## "İcazə verin övladınız təhsil alsın"

"Hər intihar xəbərində bir psixoloq olaraq özümü günahkar görürəm. Düşünürəm ki, biz niyə bu qədər az maarifləndirmə edirik? Niyə valideynlərlə tez-tez görüşlər keçirmirik? Əgər, belə seanslar olsa intiharlar azalar". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, bu gün valideynlər övladlarına qorxu və stress tətbiq edib, ali məkətəbə təşviq olunmalarını istəyirlər: "Onlar övladlarının seçiminə hörmətlə yanaşmalıdır. Övladınıza öz istədiyi peşəni seçməyə və öz istədiyi ali təhsil müəssisəsində oxumağa şərait yaradın. İcazə verin övladınız sabah özünü görə biləcək bir işdə çalışmaq üçün təhsil alsın".

Psixoloq onu da qeyd edib ki, imtahan sessiyası abituriyentlərin birbaşa yeniyetməlik dövrünə təsadüf edir: "Bu onlar üçün böhran dövrüdür. Təsəvvür edin, artıq onlar özlərində gedən dəyişikliyin içərisində, eyni zamanda imtahan yükü, ailədə baş verən psixoloji uyuşmazlıq və valideyn basqısı ilə də yüklənirlər. Məsələn, ailədə yaranacaq münaqişənin nəticəsində abi-



turiyentin diqqəti dağılır və dərsdən kənarlaşır. Hər xırda problemdə övladlarımızın bütün yaş kateqoriyasını nəzərə almalıyıq. Övladlarımızı birdən-birə yox, 2-ci şəxsiyyət dövründən imtahana alışdırmalıyıq. İmtahan vaxtı olan qorxu və stress intihara vadar edir. Abituriyentlər düşünür ki, ali məktəbə qəbul olmasalar valideynləri ondan üz döndərəcək. Mütləq şəkildə, heç olmasa məktəb psixoloqları abituriyentləri maarifləndirməli və psixoloji dəstək verməlidir".

***Ayşən Vəli***


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**